Onda görəcəksən, hamıdan əvvəl
Koroğlu atacaq qılıncına əl.
Mən yenə saz çalıb toy quracağam,
Düşmənin yurduna od vuracağam!
O, baxdı üfüqə...
Ondan çox uzaq,
Ucalmış göylərə vüqarlı bir dağ
Orada, aşaraq sıldırımları,
Tutub dişlərində ildırımları,
Qolu bazubəndli, köksü dumanlı,
Qılınc oynadırdı bir dəliqanlı!..

1945

Pyes

"ŞAİRİN YUXUSU"

(*dramatik poema*)

İŞTİRAK EDƏNLƏR

Nizami – *şair*
Məhəmməd – *onun oğlu*
Xaqani – *şair, Nizaminin dostu*
Sona xala – *onun arvadı*
Axsitan – *Şirvan şahı*
Pərviz – *Şahın vəziri*
Qürur – *Rəssam*
İntizar – *Şahın arvadı*
Hicran – *Şahın qızı*
Dərbəndi – *Saray şairi*
Kosa – *Şahın qapıçısı*
Yasəmən – *kəniz*
Çoban – *onun sevgilisi*
Sofi Həsən – *sofi*
Birinci məzarçı
İkinci məzarçı
İran elçiləri
Birinci əsgər
İkinci əsgər
Üçüncü əsgər
Xanəndə qız
Saray adamları, saray naibləri
Zaman baba – *Nizaminin bağbanı*
Aydoğdu – *bağbanın qızı*

PROLOQ

Qədim Gəncə. Nizaminin evi. Bir payız səhəridir. Evin qabağında bir bağ. Eyvandan bağa pilləkən enir. Ağacların yarpaqları saralıb. Zaman baba bağı seyr edir. Onun bir əlində bel, o biri əlində isə bir səbət var. Səbətdə heyva, nar var. O, qızı Aydoğdunu səsləyir.

Zaman baba

Aydoğdu!.. Aydoğdu!..

Aydoğdu bağın başqa tərəfindən gəlir

Aydoğdu

Nə var, ay baba?

Zaman baba

Qızım, oyanıbdır bütün el, oba,
Hamı bağlardadır... bu heyva, bu nar,
De bizim Gəncədən başqa harda var?
Əyilib torpağa səcdə edən kəs,
Dünyada ehtiyac, yoxsulluq bilməz...
Ala bu səbəti...

Aydoğdu səbəti alır. Götürüb bir-bir nara, heyvaya baxır.

Məhəmməd hanı?

Aydoğdu

Yəqin şeir yazır.

Zaman baba

İnsanın canı
Zəhmətlə, havayla borkiyir müdam,
Zəhmətsiz nə söz var, nə də ki, ilham...

kiçik pauza

Ona de ömrünü verməsin bada,
Şer Nizamiylə bitdi dünyada...

Aydoğdu

O gözəl oğlandır... kamalı dərin,
Öyrənir sirrini səyyarələrin...

Zaman baba

Bilirəm.. O, sənə deyir sözünü,
O səndən çəkməyir bir an gözünü.
Sən də səyyarəsən?..

Aydoğdu

Baba, can baba,
Ey mənə hamıdan mehriban baba!

Zaman baba

Nə var, ceyran qızım?.. Nə var – belə sən,
Yenə də dil açıb bağda ötürsən?!

Aydoğdu

Mənə şeir qoşub Məhəmməd o gün,
Ağlımı başımdan alıbdır bütün!..

Zaman baba

Əlbəttə... əlbəttə... şair oğludur,
Onun da sinəsi sözlə doludur...

kiçik pauza

Aydoğdu

Amma, İlyas baba kefsizdir yaman...

Zaman baba

Qızım, dağ başına yığılar duman,
Şairlik həm sevinc, həm də ki qəmdir,
O başqa bir dünya, başqa aləmdir!

kiçik pauza

Yenə sapsarıdır bağçalar, bağlar,
Düşür budağından bir-bir yarpaqlar...
Bu dünya belədir... keçdikcə zaman,
Ömrün budağından qopur hər insan
Mən gedim işləyim. Bir arzum var: sən
Dünyada daha xoş günlər görəsən!..

Zaman baba əlində bel gedir. Aydoğdu əlindəki səbəti pilləkənə qoyur. Getmək istərkən Məhəmməd eyvanda görünür.

Məhəmməd

Aydoğdu!.. Aydoğdu!.. Getmə, bir dayan,
Hər zaman fikrimdə bir sənsən, inan!..

(O, pilləkənlə aşağıya enir)

Aydoğdu

Şeirmi yazırdın?

Məhəmməd

Yazırdım... fəqət
Çətindir qazanmaq şeirlə şöhrət!..

Aydoğdu

Odur ki, ömrünü vermə sən bada,
Şer Nizamiylə bitdi dünyada!

Məhəmməd

Elədir, Aydoğdu... sözlərin haqdır,
Vaxtı boş keçirmək məncə nahaqdır...
Münəccim olaram... ya da ki həkim,
Onda sənətimə xor baxmaz heç kim...

Nizami çiynində ləbbədə eyvana çıxır. O, asta addımlarla pilləkənlə bağa düşür. Məhəmmədin, Aydoğdunun yanına gəlir. Onların alınlarından öpür.

Nizami

Mənim balalarım!.. Xoşbəxt olun siz,
Ürəkdə qalmasın bir istəyiniz!..

(O, bağı seyr edir. Kiçik pauza)

Payız nə gözəldir!.. Min nemətі var,
Əyir budağını bağda heyva, nar!
Yarpaqlar tökülür yerə sapsarı,
Ağarır uzaqda dağların qarı!..

Bir də fəlakətlər olmasın deyə,
Kəpəz keşik çəkir orda Gəncəyə.
Susub Gəncəçayı!..

Məhəmməd

Neçin belə sən,
Son günlər gözümə bir cür dəyirsən?

Nizami

Çoxdan Xaqanidən bir xəbər yoxdur,
Ömür sona yetir... dərd isə çoxdur...
Ah görüm zamanın kor olsun gözü,
Onun da qəlbində qaldı hər sözü!..

Orda bir xaqan var, burda bir xaqan,
Gəncə bir zindandır, Şirvan bir zindan!..

Zaman baba gəlir.

Məhəmməd

Bu çoxdan belədir... De nədir bu qəm,
Nə vaxtdır əlinə almırsan qələm?

Nizami

Narahat olma sən... qurbanın olum.
Ey mənim kamallı, mehriban oğlum...

(Onun alnından öpür. Kiçik pauza)

Bir yuxu görmüşəm, qorxunc bir yuxu,
Sanki daşa dəyib ilhamın oxu!..

Hamı təəccüblənir.

Zaman baba

Nə yuxu?.. Məhəmməd gəlməsin gözə?

Nizami

Gedək... öz yuxumu danışım sizə.

Onlar bir-bir pillələrlə yuxarı çıxırlar. İşıq sönür.

Pərdə

I şəkil

Şirvan. Şahın sarayı. Sarayın qabağında böyük bir bağça. Bağçaya kiçik daş pillələr enir. Bahar səhəridir. Güllər, çiçəklər açılmışdır. Məhəmməd və Qürur bir ağac altında dayanıb söhbət edirlər.

Uzaqdan kəniz qızın həzin mahnısı eşidilir.

Mahnı

Bir yarpağam... üzülmüşəm budağımdan,
Ayrılmışam öz elimdən, torpağımdan.
Tək qalmışam baxa-baxa bu yollara,
Ahım, ünüm çatmır yara, çatmır yara...
Gəl-gəl, mənim öz sevgilim, öz çobanım,
Sənə qurban olsun canım, olsun canım...
Çəkil duman bu dağlardan, bu dağlardan,
Bir səs gəlsin uzaqlardan, uzaqlardan,
Dözmək olmur bu ağrıya, bu hicrana,
Xəbər verin mərd çobana, nər çobana...
Gəl-gəl mənim öz sevgilim, öz çobanım,
Sənə qurban mənim canım, mənim canım...

Məhəmməd

Bax kəniz ağlayır sevgilim deyə,
Hər sözü ox kimi batır ürəyə!
Yox-yox olmayacaq, qardaşım, heç bu,
Nə qədər alçalmış insan duyğusu!
Hələ sevgilisi o igid çoban!
Zəncirli pələng tək çırpınır, inan,
Çapanda atını o, dağdan-dağa,
Kəndlər arxasınca qalxır ayağa!
Yazıq kömək umur pərvərdigardan,
Bir gün asılacaq sarayda dardan!..
Duyduqca qaralır gözümdə aləm,
Didir ürəyimi parçalayır qəm!..

Qürur

Sənə yaraşmayır əzizim bu hal,
Neçin gözlərində yurd salıb məlal?
Böyük Nizaminin övladısan sən,

Gəncə qartalının qanadısan sən?
Şirvandan başlamış Təbrizə qədər
Onun şeiri ilə fəxr edir ellər.

Məhəmməd

Onun taleyi də bir tale deyil,
Saçına dən düşüb, qocalır hər il.
İndi də çağırır bura Axsitan,
Zindanlar içində yaşayır insan!..

Qürur

Bunlar ki, tarixdə əzəldən vardır.
Hər dövrün ağası bir hökmdardır!..

Məhəmməd

Hökmdar! Hökmdar! Bu ada bir bax,
Gözləri olsaydı, bu ana torpaq
Özü də qorxardı yaratdığından,
Quduz canavardır sanki Axsitan!
Hər axşam, hər səhər görürəm ki, mən
Bir qız qaçırılmış şaha kəndlərdən.
Ağlayır, hıçqırır, yatmayır onlar,
Min qapı bağlamış başsız qanunlar!..

Qürur

Yenə təzələdin dərdimi mənim,
Duyduqca buz kimi olur bədənim.
Azad bir oğlandım kəndimizdə mən,
Çəkib yaradardım sevdiklərimdən.
Gecələr dırmanıb bir dik qayaya,
Baxardım göylərdə süzülən aya.
Olardı ilhamım bulud karvanı,
Alardı fikrimi səhər dumanı.
Gülərdi gözümdə bir saf məhəbbət,
Olardı ilhamım gözəl təbiət!..
İndi salınmışam bir daş qəfəsə,

Ürək fəryadlarım çatmır heç kəsə.
Gündə əmr eyləyir mənə Axsitan,
Gərək yaradasan bir qanlı meydan.
Orada görünə baş üstündə baş,
Qandan yaqut kimi parlaya hər daş!
Yıxıla yan-yana min bir pəhləvan,
Mən də bir tərəfdə əlimdə qalxan
Durub iftixarla şiri-nər kimi
Baxım cəsədlərə igid ər kimi!..

Məhəmməd

Sən onun qəlbindən keçənə bir bax,
Elə bil dünyada Rüstəm olacaq!..

Bu zaman uzaqdan Hicranın ayaq səsi gəlir. Məhəmməd onu görmür.

Qürur

Sus, deyən gələn var?..

Məhəmməd

Vəzirdir yəqin.
Yenə gözlərində parlayacaq kin...

(Gələnin Hicran olduğunu görür)

Yox, yox bu Hicrandır!
Hicrandır, Qürur.
Görəndə könlümdə tufanlar qopur!..

Qürur

De, novruz dərdidir qəlbindəki dərd,
Səni də kəməndə saldı məhəbbət.
O sənə layiqdir... gözəldir Hicran,
Sənə çox görməsin onu Yaradan.
Hələlik... mən getdim... sağ ol, qardaşım...

(Gedir)

Məhəmməd

Bir odur sarayda mənim sirdaşım,
Bilirəm, qəlbində vardır məhəbbət.
Doğrudan yaraşır ona sədaqət.
Görürəm çox sevir şeiri, sənəti,
Neyləsin, gözündə qalıb niyyəti!..

Hicran Məhəmmədə yaxınlaşır, onun əlində bir dəstə gül vardır.

Məhəmməd

Hicran! Hicran!..

Hicran

Səni soruşdum Sona xaladan!
Dedi ki, son günlər qəmgin görünür,
Üzündə-gözündə bir kin görünür,
Söylə, nə olmuşdur, əzizim, yenə?

Məhəmməd

Sənsiz bir zindandır bu saray mənə
Bir gün görməyəndə dağılır qəlbim,
Könlümün sazında ağlayır hər sim,
Səndə də varmıdır insaf, mürüvvət?!

Hicran

Yadımdan çıxmırsan... nə edim fəqət...
İnan ki, qorxuram mən şah atamdan,
Onun nəfəsindən titrəyir Şirvan.
Yenə də hər zaman fikrimdə sənsən...

Məhəmməd

Səndəki sevgiyə inanıram mən!..
Hicran, ay Hicran,
Görən, heç ömründə sevmişmi atan?

Hicran

Nə bilim... Eh, onda sevgi nə gəzir,
Şahınkı qızıldır, bir də ki, vəzir...

(kiçik pauza)

Yazıq anamı da uddu bu saray,
Ağladı, bir kəsdən görmədi haray.
Soldu gözəlliyi, soldu kamalı,
Getmir gözlərimdən onun xəyalı
Ona oxşayıram mən bəxti qara...

Məhəmməd

Bu söz yaraşmayır bir şux nigara!..
Sən mənim sevdiyim bir ilk şahımsan,
Ömrümdə ilk yarım, ilk pənahımsan,
Sənsiz məcnun olar, gələrəm, inan.

Bu vaxt Dərbəndi, vəzir onları görüb çəkilirlər.

Hicran

Kamsız öldürməsin bizi Yaradan!
Gedirəm... görərlər... sənindir ürək...

(Gedir)

Məhəmməd

(ah çəkib onun dalınca baxır)

Ağladar, incidər güldürməz mələk!

Getmək istərkən birdən pilləkəndə İntizar çılğın bir vəziyyətdə onun qabağını kəsir.

İntizar

Görmək istəyirdim səni bayaqdan,
Bu qədər insafsız olarmı insan?

Məhəmməd

Buyurun, söyləyin nə sözünüz var?

İntizar

Yazıq bir kənizdir, ölür İntizar.
Cavab ver eşqimə, incitmə məni,
Yata bilməmişəm bütün gecəni.
Özüm də bilmirəm nədir günahım,
Dünyada bir sənsən mənim pənahım!..

Məhəmməd

Sən şahın hərəmi, şahın yarısan!..

İntizar

O ərdir, sən könül hökmdarısan!..
Əlac et bu xəstə qadın qəlbinə.

Məhəmməd

Sus, xanım, bu sözlər yaraşmır sənə.
Axsitan eşidər... bir xəbər duyar...

İntizar

Mənim də qəlbimin öz arzusu var!..

Yenə vəzir, Dərbəndi onları görüb çəkilirlər.

Məhəmməd

Mən könül vermişəm başqa bir yara,
Xəyanət etmərəm o şux dildara.
Sevgi dedikləri təmiz bir ölkə,
Onun üfüqləri götürməz ləkə!
Siz isə əl çəkin bu ehtirasdan...

İntizar

Ah, səndə yoxmudur, bir damla vicdan?

Məhəmməd

İntizar!

İntizar

Nədir son qərar?
Bəxtiyar eyləmə bu soyuq yeri,
Torpağa aparma gözəllikləri!..

Məhəmməd

Qıyma gəncliyimə, arzularım var...

İntizar

Mənim də qəlbimi didir alovlar,
Özüm də küskünəm öz taleyimdən,
Şaha körpə ikən verilmişəm mən!

Məhəmməd

Sarayda nə çoxdur cavan oğlanlar,
Qızılla, rütbəylə fəxr edir onlar...

İntizar

Könül sevdiyinə baş əyər ancaq!..

Məhəmməd

Məhəbbət deyildir əldə oyuncaq.

İntizar

Mən dedim sözümü... bitmişdir artıq,
Sən yaxşı fikirləş...

(Gedir)

Məhəmməd

Gəlir ayrılıq,
Ömrün göylərində yenə çən, duman,
Əzablar içində ölürəm, aman!
Xəyanət, ehtiras yurdudur bura,
Güllər açılmadan tutulur xara!
Yox, yox mən sənənəm, sənənəm, Hicran,
Sənsiz gözlərimdə bir heçdir cahan!..

Gedir. Vəzir, Dərbəndi gəlirlər.

Vəzir

Demək ki, sarayda kiçik bir uşaq,
İki mələkəyə sahib olacaq!
Mən sənin halına yanıram, yazıq,
Hicran da əlindən çıxmışdır artıq.
Sən də bir şairsən, şöhrətin vardır,
Hər yanda, hər yerdə hörmətin vardır!..

Dərbəndi

Neyləyim, belədir taleyim mənim,
Ölməmiş, üstümə gəlir kəfənim!
Bir zaman qəlbimi aldı İntizar,
O uçdu, əlimdə tutmadı qərar.
Ah, indi də Hicran!..

Vəzir

Əzəldən bu sayaq doğulub insan.
Güclülər yaşayır, gücsüzlər ölür,
Ağacdan yarpaqlar yellə tökülür...

Dərbəndi

Demək ölməliyəm, bitmişdir daha?!

Vəzir

Hələ Nizami də söz verib şaha,
Yığışıb Şirvana gəlir Gəncədən...

Dərbəndi

Sarayda baş şair olmayacam mən?!

Vəzir

Şübhəsiz, saraya o gələn kimi
Şahın olacaqdır ürək həmdəmi.

Dərbəndi

Di mənə yol göstər... bir yol, qardaşım,
Buz kimi donmuşdur, işləmir başım.

Vəzir

Yalnız bir yol vardır... cəsarət, hünər,
Bununla yaşayır dünyada ərlər!..

Dərbəndi

Yalnız bir yol vardır... cəsarət, hünər,
Bununla yaşayır dünyada ərlər!..

Vəzir

Şah sənin dostundur... inanır sana,
Odur ki, vaxt tapıb bir dəfə ona
Söylə ki, Məhəmməd edir xəyanət,
Hicrana açmışdır o gün məhəbbət.
Şah da bir kişidir, qısqanıb o da
İnan, Məhəmmədi o dəm məhv edər,
Sənsə taleyin ay kimi gülər!

Dərbəndi

Ah, Pərviz danış bir, danış, qardaşım!..

Vəzir

Ey mənim namuslu, sadiq sirdaşım!
Bu, Nizaminin də qəlbini didər,
Biryolluq sarayı tərk edib gedər.
Alarsan Hicranı!.. Yenə də saray...
Gələr hüzuruna o günəş, o ay...
Dərbəndi! Dərbəndi! Çağırar hamı,
Uçar buludlara şair ilhamı!

Dərbəndi

Sağ ol, Pərviz, sağ ol... xəcalətindən
Ölməsəm, inşallah, çıxacağam mən!

Vəzir

Gördünmü, bax belə, ayrı cür olmaz,
Qoy sərsin üstünə qanadını yaz!..

(Dərbəndi gedir)

Vəzir

Sadiq qardaşındır, ölməmiş Pərviz,
Sarayda namusla yaşayırıq biz.
Bir dəfə qanmadı yekəbaş dana
Fələk də sarayda düşər zindana!..
Çox qalsa, şah vəzir eyləyər onu,
Qoy getsin.. kəsərəm bir gün yolunu!..
Sonra da, şah qalır... asandır o da,
Qoy adım çəkilsin bütün dünyada...
Gəlsin, öz qoynuma girsin İntizar,
Qəlbimdə qalmasın gərək arzular!..

(Gedir)

Pərdə

II şəkil

Saray. Axşamdır. Şamlar yanır. Divarlarda pəhləvanların çəng səhnələri canlanır. Axsitan döşəkcə üstündə oturmuşdur. Qəmgindir. Vəzir onun qarşısında dayanmışdır.

Vəzir

Buyur, dinləyirəm möhtərəm şahım,
Sizsiniz dünyada mənim pənahım!..

Axsitan

Qoy qalsın bunları... danış bir görək.
De, neçün sinəmdə çırpınır ürək?
Neyçün darıxıram bu sarayda mən?
Könlüm həzz almayır əyləncələrdən?!

Vəzir

Bəlkə yorğunsuzunuz, böyük hökmdar?
Bilmirəm, bəlkə də bir arzunuz var?
Söyləyin, hazırdır əmrə bu saray,
Göylərin zinəti o ulduz, o ay...

Axsitan

Dünya bir boşluqdur... Yoxdur vəfası,
Tükənmiş hər şeyin eyşü səfası.
Mənim də üstümü almışdır artıq
Böyük igidləri yıxan qocalıq.
Yaşamaq, ölməmək istəyirəm mən,
De, indi nə gələr sənin əlindən?

Vəzir

Yaşamaq... Ölməmək... möhtəşəm şahım...

Axsitan

Sizsiniz dünyada mənim pənahım!
Gördünmü acizsən? Acizdir insan,
Hamı gedəcəkdir bir gün dünyadan...

Vəzir

Bizdəmi, bizdəmi, böyük hökmdar!

Axsitan

Yox, səni çox sevir o pərvərdigar!

Bu vaxta qədər onları ayaq üstündə dinləyən kosa üzünü şaha tutaraq.

Kosa

Doğrudur, doğrudur, zənnimcə gərək
Bir vəzir qalacaq bu dünyada tək...

(gülərək gedir)

Axsitan

Baxırsan? Kosa da anlamış bunu,
Anlamış dünyanın puç olduğunu!..

Vəzir

Şahım, yorğunsunuz... vardır, cananlar,
Sizi əllərində gəzdirər onlar.

Axsitan

Cananlar, pərilər çox gördüm vəzir,
İndi bir başqa şey qəlbimdə gəzir.

Vəzir

Buyurun, buyurun, böyük hökmdar!
İnsan qocaldıqca, arzu çoxalar...

Axsitan

(yerindən duraraq)

Atam Mənuçöhrün rəşadətindən,
Onun yenilməyən şücaətindən,
Anam Tamaranın sədaqətindən,
O qadın qəlbinin məhəbbətindən
İstərəm yazılsın böyük bir dastan,
Gülsün əzəmətlə qanlı bir meydan...
Mən də az olmadım vuruşmalarda,
Qalmışam çox zaman çətində, darda.
İgidlər basmışam, şirlər yıxmışam!..
Qılıncla, qalxanla hərbdən çıxmışam!
Etmişəm, qəlbimdən keçmişsə nələr,
Önümdə baş əymiş daş qərinələr.
Basılmış, qırılmış burda düşmanlar,
Nəslimin çox şanlı bir tarixi var!..
İnsan tarixilə edir iftixar.
O zaman əbədi yaşayaram mən.
Baxaraq dastanın hər bir sözünə.
Gördükcə bunları güc gələr mana,
Olar ömrüm üçün gözəl bir ayna!..
Yalnız onlar olar mənə təsəlli,
Qaldırar könlümü sənətin əli!..

Vəzir

Baş üstə, baş üstə, asandır bunlar,
Nə çoxdur sarayda böyük sənətkar.
Dərbəndi... Xaqani, şahım, hər zaman
Onlar əmrinizlə yaradar dastan.
Yəqin, Nizami də ləngiməz, gələr,
Onda daha çoxdur iqtidar, hünər...

Axsitan

(bir qədər düşünərək)

Bacarsa, Nizami bacarar bunu,
Mən "Leyli Məcnun"la tanıdım onu.
Ləl töküb dindirir sözün ağzına,

Şairlər pərəstiş eyləyir ona!..
O şeirə dil verdi, xəyala qanad,
Nizami! Dünyaya bəllidir bu ad!

Vəzir

Buna nə vardır ki... darıxmayın siz,
Qoy gəlsin Nizami... düzəldərik biz...

Axsitan

Əmrimi saymasa, gəlməsə əgər,
Zərbimdən yıxılar, uçar bu göylər!
İnan, həsrət qalar tək övladına,
Tanrı bir daş ürək vermişdir mana!..

Vəzir

Nigaran olmayın, gözləyin bir az,
Gülsün qəlbinizdə çiçəkli bir yaz.

Şah oturur. Dərbəndi, Xaqani, Məhəmməd gəlirlər.

Axsitan

Bir şeir oxuyun... açılsın könül,
Qoy sözün bağında dil açsın bülbül.
Görünsün hər kəsin gücü, qüvvəti,
Artırın sarayda bu təravəti!..

Dərbəndi

Şahım, qarşınızda qulunuzuq biz,
Hazıram, əmr etsə hər nə qəlbiniz.

Vəzir

Dərbəndi başlasın... onda çox söz var.

Məhəmməd

Yox, yox... Xaqanidir şeirə hökmdar.

Xaqani

Dərbəndi başlasın, başlasın görək...

Vəzir

Qoy şeirin səsilə döyünsün ürək.

Dərbəndi əvvəl şaha baş əyib, sonra bir tərifnamə deyir.

Dərbəndi

Ey adil padişah, ey böyük insan!
Bizə göndəribdir səni Yaradan.
Dəryalar qədərdi səxavətiniz,
Dünyanı tutdunuz igidliklə siz.
Var olun, yaşayın illər uzunu,
Dərbəndi Tanrıdan istəyir bunu,
İndi izn verin əmrinizlə mən
Oxuyum özümün qəzəllərimdən.

Axsitan

Maşallah! Maşallah, afərin sana!..

Vəzir

Yaradan vergidir, veribdir ona!..

Dərbəndi

(qürurla oxuyur)

Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,
Hər nəfəs çəkdim hədər, getdi o saət sənsiz.
Sənin o cəlb eyləyən vəslinə and içdim, inan,
Hicrinə yandı canım, yox daha taqət sənsiz.
Başqa bir yarı necə axtarım, ey nazlı mələk,
Bilirəm, sən də dedin, yox daha hacət sənsiz.
Sən mənim qəlbimə hakim, sənə qul oldu könül,
Sən əzizsən, mən ucuz, bir heçəm, afət, sənsiz.

Nə gözüm var arayım mən səni, bəxtim də ki yox,
Nə də bir qaçmağa var, məndə cəsarət, sənsiz.
Sən Dərbəndidən əgər arxayın olsan da, gülüm,
Gecə-gündüz arayıb olmadı rahət sənsiz.

Axsitan

Aha bunlar söz deyil, cavahiratdır!..

Xaqani

Doğrudan, Dərbəndi lap qiyamətdir!..

Vəzir

Bəs neçin mənalı güldünüz yenə.

Xaqani

O sözlər əvvəldən tanışdır mənə.
Qardaşım Nizami yadıma düşdü.

Axsitan

(ayağa qalxaraq)

Mən heç baş tapmıram bu necə işdir?!

Dərbəndi

Bu sözlər böhtandır, böhtandır mana!

Axsitan

Şübhə bir ləkədir o pəhləvana!..

Xaqani

Təriflər deməklə yaranmır sənət,
Ona qəlb lazımdır, bir də məhəbbət!..

Dərbəndi

Demək ki, uşağıq, bacarmırıq biz?..

Xaqani

Çünkü kiflənibdir sizin beyniniz!

Axsitan

Xaqani, yadından çıxmasın zindan,
Ovucda gizlənə bilərmi ümman?!
O mənim dostumdur, ilhamı vardır,
Dilləro düşəcək kəlamı vardır!

Vəzir

Bu bir paxıllıqdır, böyük hökmdar,
Şairlər içində belə çox var...

Xaqani

O sənin adına yaraşır, məncə...
Çünki gün çıxanda əriyir gecə!..

Qürur əlində çəkdiyi rəsm gəlir, o, rəsmi şaha verərək.

Qürur

Buyurun, çəkmişəm, hazırdır əsər,
Baxıb keçmişinə qoy gülsün bəşər!..

Şəkil ortaya qoyulur, hamı ona tamaşa eləyir.

Məhəmməd

Doğrudan, gözəldir!.. Qəşəngdir, Qürur,
Qanlı vuruşmalar bax belə olur.

Tökülür üst-üstə əllər, kəllələr,
Özü də bilməyir nə edir bəşər.
Sonra da baxdıqca tökdüyü qana,
Acıyır sərkərdə yazıq insana!..

Şah adamlara baxır, heç kim dinmir. Xaqani şəklə baxdıqdan sonra.

Xaqani

Əsərdir, yaratmış cavan bir ustad,
Al qanlar içində canlanır həyat.
Onun sevmədiyi qılıncdır, qandır,
Hər şeydən qiymətli onca insandır.
Sərkərdə qan tökmüş... o, peşmandır, bax,
Çənli, dumanlıdır hər dərə, hər dağ...
Afərin! Afərin! Çox sağ ol, Qürur,
İnsan yaratdıqca, sənətkar odur!..

Xaqani onun alnından öpür. Şah danışmayanlara baxır, sonra şəkildən yeni bir şı tapmış kimi qəzəbli və mənalı bir tərzlə

Axsitan

Dediniz, gözəldir... Heç sözüm yoxdur,
Qürurda cəsarət olduqca çoxdur.
Fəqət anlamıram, bəs neyçün heç mən
Özümü tapmadım əsərinizdən?!
Bəs orda, o yanda dayanan kimdir?!

Qürur

O, böyük sərkərdə İskəndər Kəbir!

Axsitan

Sərkərdə, İskəndər, ah bəs mən, bəs mən?

Qürur

Doğrusu, o böyük igidliklərdən
Bir şey yaratmağa gəlmədi əlim,
Nə ki, var, deməyə acizdir dilim...

Axsitan

Acizdir, acizdir!.. Sözə bax, axmaq,
Olarmı heç mənim əmrimdən çıxmaq?!

Xaqani

Həqiqət lazımdır, şahım, həqiqət!

Axsitan

Həqiqət olmazsa yaranmaz sənət?!

Xaqani

Bəli, yaranmayır, belədir düzü,
Yalandan dindirmək olmayır sözü.
Şairdə olmasa təmiz bir vicdan,
Deyməz bir qəpiyə yazdığı dastan!

Dərbəndi

(Xaqanini göstərərək)

Xaqani Təbrizə gedəcək deyə,
Yəqin ki, onu da alır yedəyə?..

Qürur

Siz ki, bir daşsınız, sakitcə durun,
Haraya qoysalar orda oturun!..

Axsitan

İndi də dikbaşlıq edəcək bizə.

Vəzir

O da bir təhlükə olacaq sizə.

Axsitan

Söyləyin naiblər gəlsinlər bura,
Qoy onlar son qoysun danışıqlara!..

Bir dəstə adam daxil olur. Əllərində qamçı var, şah üzünü onlara tutaraq Qüruru göstərir.

Axsitan

Tutun qollarını... O əllərinə
O qədər vurun ki, şahın əmrinə
Belə hörmətsizlik etməsin bir də.
Vurun, elə vurun görünsün al qan,
Qüvvətin gücünü anlasın insan!..

Qürurun qollarını tuturlar, onu şəklin üstünə gətirirlər, əllərinə döyürlər.

Məhəmməd

Şahım, insaf edin, o, sənətkardır,
Onun şüşə kimi bir qəlbi vardır!..

Axsitan

Sən mənə qonaqsan! Dayan kənarda...

Məhəmməd

O bir sənətkardır, olsa da harda.

Qürur

(gücsüz bir halda yerə düşərək)

Dayanın, vurmayın, böyük hökmdar!

Axsitan

Qoy hələ döysünlər, çox günahın var.

(Yenə vururlar)

Dayanın indi,
Aparın, qoy bilsin fərman kimindir!..

Qüruru halsız vəziyyətdə aparırlar. Kosa içəri gəlir. Bir nəfər atlının gəldiyini xəbər verir.

Kosa

Şahım, bir atlı var, olarmı gəlmək?

Axsitan

(bir qədər acıqlı)

O kimdir bu zaman? De gəlsin görək!

Məhəmməd

(Xəqaniyə)

Bu gələn atamdır... atamdır məncə,
Hardadır, daxmamız? Hardadır Gəncə!..

Nizami bir əlində qamçı, bir əlində kiçik bir heybə daxil olur. Xaqanini və oğlunu görərək

Nizami

Xaqani... Məhəmməd!.. Xoş gördük sizi.

Məhəmməd

Dağılmış ayrılıq yormuşdur bizi!..

Onlar görüşüb öpüşürlər. Şah gələnin Nizami olduğunu görərək.

Axsitan

Xoş gəlmiş Nizami!.. Xoş gəlmiş bura,
O, bir yaraşıqdır bu saraylara!..

Nizami öz hərəkətləri ilə razılıq edir.

Xaqani

Gedək, dincəliniz... Yorğunsuz, yəqin,
O, görən gözüdür bu məmləkətin.

Adamlar bir-bir çıxırlar.

Pərdə

III şəkil

Yenə də saray. Sarayda bir otaq. Hicran pəncərə önündə dayanıb göylərə uçan ağ buludlara baxır. Asta-asta oxuyur. Səhərdir.

Hicran

Bir laçınam, düşdüm tora,
Könül uçur uzaqlara.
Əlim çatmır, neylim, yara,
Nə zalımdır, ah, bu zaman
Eşqə düşüb yandım, aman!

Yamyaşıldır dağlar, çöllər,
Sərin-sərin əsir yellər,
Göz vuraraq açır güllər.
Nə zalımdır, ah, bu zaman,
Eşqə düşüb yandım, aman.

Uçma bülbül, dayan bir az,
Monə sirdaş yaranmış yaz.
Gəl mənimlə eylə pərvaz,
Nə zalımdır, ah, bu zaman,
Eşqə düşüb yandım, aman!..

Nəğmənin son sözləri bitdiyi zaman Məhəmməd gəlir, onu görüb pərdənin dalında gizlənir.

Hicran

Görən Məhəmməd də dərddən yanırmı?
O da göz yaşilə məni anırmı?
Onsuz hər dəqiqəm bir uzun ildir,
Uç, bülbül, dərdimi sən ona bildir.
Söylə ki, saralıb solmuşdur Hicran,
Sənsiz bir zindandır ona xanimən
Yox, uçma... bəlkə də, nə bilim, o da...
Az olur vəfalı insan dünyada!

Məhəmməd pərdənin dalından çıxaraq.

Məhəmməd

Vəfasız deyildir, inan Məhəmməd,
Dalınca sürünüb, gəzir məhəbbət...

Hicran

(diksinərək)

A, sənsənmi, aman!..

Məhəmməd

Söylə, qorxdunmu sən, sevimli canan?

Hicran

Sən allah, gəlmə, get... görərlər bizi...

Məhəmməd

Qoy barı bir dəfə ürəyimizi
Açıb söhbət edək burda könüldən,
Yollara baxmaqdan yorulmuşam mən!..

Hicran

(kinayəli)

Görürəm, saralıb al yanaqların...

Məhəmməd

Ona işıq salır gül dodaqların!

Hicran

Sən şair oğlusan, çox olur sözün.

Məhəmməd

Mənə ilham verir o xumar gözün.
Gülsün, çiçəklənsin sevginin bağı,
Dumanlar görməsin ömrümün dağı!..

Hicran

Atan da gəlmişdir... gedək buradan,
Qəlbimə sığmayır bu daş xaniman!..

Məhəmməd

Nə bilim, əzizim, bəlkə də birdən...

Hicran

İnan ki, özümü öldürərəm mən!..

Məhəmməd

Amandır, sənsə də bir xeyir danış,
Bizi ayırmasın bir boranlı qış!..

(Hicran getmək istəyir)

Getmə dur, doyunca qoy görüm səni!..

Hicran

Di bəsdir, biabır eyləmə məni.

Xaqani, Nizami gəlirlər. Onları görüb dayanırlar. Məhəmmədlə Hicran bir-birini qova-qova pərdənin dalına keçirlər.

Nizami

O kimdir, Xaqani? Kimdir o pəri?
Uçurur xəyalı gözəllikləri!..

Xaqani

O şahın qızıdır... Hicrandır adı,
Bülbül tək qəfəsdə keçir həyatı.
Bir türk kənizindən doğulmuş yazıq,
Məhəmməd o qıza vurğundur artıq.
Hicranı çox sevir, ürəyi vardır...

Nizami

Mənə Afaqımdan o yadigardır.
Onun gözləri tək qaradır gözü,
Çox vaxt hökmanə olur hər sözü.
O oğul deyildir, yoldaşdır mənə,
Ağır günlərimdə sirdaşdır mənə...

Xaqani

Gəl gedək, Axsitan gözləyir bizi.

Nizami

Qoy bunlar bilməsin gəlməyimizi.

Gedirlər. Məhəmməd, Hicran pərdənin dalından çıxırlar.

Məhəmməd

Baharın ətridir nəfəsin sənin,
Vəfasız kim olsa məzar görməsin!..

Hicran

Görməsin... Bu mənim ilk ilqarımdır,
Sədaqət anamdan yadigarımdır!..

İntizar yan tərəfdən gəlir. Onları görüb gizlənir.

Hicran

Di çıx get, görərlər... bəs deyil daha?

Məhəmməd

Hicransız zindandır mənə bu dünya,
Qoy baxım yenə də camalına mən,
Vurğunam o böyük kamalına mən!
İnan, ömrüm boyu üzümə gülsən
Dünyanı təzədən yaradaram mən!

Onlar ayrılırlar. Hicran bir tərəfə, Məhəmməd o biri tərəfə getməyə hazırlaşırlar. Bu vaxt İntizar pərdənin dalından çıxır. Bunu görən Hicran tələsik gedir.

İntizar

(istehza ilə)

Demək ki, Hicranı sevirmiş oğlan!?
Sizi dinləyirdim orda bayaqdan,
Çox yaxşı xəyanət edirsən şaha!

Məhəmməd

Dayan. And verirəm o bir Allaha!

İntizar

İndi əlimdədir hər ixtiyarın,
Gəl əyil, qarşımda sınsın vüqarın!..

Məhəmməd

Mən necin əyilim?.. Sevirəm onu,
Könül bəyənmişdir tərlan ruhunu!..

İntizar

Könül bəyənmişdir... bəs mən? İntizar?
Qalsınmı qəlbimdə, söylə, arzular?
Bir kimsə anlamır mənim ağrımı,
Parçala əlinlə dağıt bağrımı!..

Məhəmməd

Sinədə bir olur əzəldən ürək,
Odur ki, birini o sevsin gərək!

İntizar

Mən indi bildim ki, hələ uşaqsan,
Qızıldan, dövlətdən qaçarmı insan!
Şah da qocalmışdır... ölüb gedəcək,
İxtiyar sənindi, sarayda kef çək!
Yenəmi göylərə dikildi gözün?

Məhəmməd

Çünki mənasızdır, məncə, hər sözün.
Nə çoxdur istəsən dünyada dövlət,
Hər şeydən ucadır, məncə, məhəbbət!..

İntizar

Elə varlığın puç olacaq, bil,
Artıq daş ürəyim yumşalan deyil!
Necəsən, qışqırım səs salımmı mən?
Bir zərər görərsən etdiklərindən!

Məhəmməd

Sus, bəsdir, yaramaz, ifritə qadın,
Nolardı, bilmirəm yaranmasaydın!..

Dərbəndi onları görməmiş kimi gəlir.

Dərbəndi

Heç yaxşı olmadı... bu əhvalatı...

(Məhəmməd özünü itirmiş bir halda)

Məhəmməd

Burda nə vardır ki... saray həyatı...

İntizar

Bir saf külfət kimi yaşayırıq biz...

Dərbəndi

Ancaq eşitdiyim o sözləriniz
Bütün xəyanətdir sevimli şaha!..

Məhəmməd

Dərbəndi, kiriyin!..

İntizar

Şahiddir Allah!

Dərbəndi

Mən qulam, o isə bir ulu hakim,
Cəza alınalıdır suçlusa hər kim!..

Məhəmməd

Siz ki, şairsiniz bu böhtan nədir?

Dərbəndi

Artıq sözləriniz bir əfsanədir...

(O, yuxarı-aşağı qaçaraq)

Ay haray, ay haray!.. Tez gəlin, aman,
Xəyanət etmişdir şaha bu oğlan!..

Bir dəstə adam gəlir, onların içində Hicran da vardır. Dərbəndi gələnlərə

Dərbəndi

Xəyanət edirdi, budur, baxın bir.

Məhəmməd

O sənin əlindən çox yaxşı gəlir!

Hicran

(həyəcanla)

Yox, yox, siz baxmayın, uymayın ona,
Bu sözlər böhtandır şair oğluna!..

Dərbəndi

Daha deməliyəm... dayanmaq olmaz...

(Gedir. İntizar onun dalınca)

İntizar

Dayanın, getməyin səbr edin bir az.

Məhəmməd

Bilirəm, saraydır, zindandır bura,
Dar gəlir namuslu doğulmuşlara!..

Hamı gedir. Məhəmməd pərişan halda çıxır. İntizar Dərbəndinin, sonra Məhəmmədin dalınca baxır. Öz otağına tərəf gedir.

Pərdə

IV şəkil

(*İkinci şəklin quruluşu eyni ilə*)

Əyanlar əyləşmişlər. Cariyələr xidmət edirlər. Əllərdə şərbət piyalələri və şərab badələri var. Rəqqasələr rəqs edirlər, hamı şaddır. Şah nəşəli halda ayağa durur. Nizaminin yanına gəlir. Onun əlində badə vardır.

Axsitan

Var olsun Nizami! Var olsun sənət!
Var olsun bu saray, bir də məhəbbət!
Olmasın üzlərdə bir kədər, bir qəm,
Nəşələr içində gülsün bu aləm!

İçirlər. Xanəndə qız bir fars mahnısı oxuyur. Mahnı bitən kimi şah işarə edir, hamı dağılır.

Şair, pis olmadı bu gün səyahət,
Açıb gözlərini gülür təbiət.
Atmış yaşamağını hər çiçək, hər gül,
Dolanır güllərin başına bülbül.
Bir yaşıl məxmərlə örtülmüş hər dağ,
Jalədən piyalə doldurmuş zanbaq.
Necə, gözəldirmi Şirvan mahalı?

Nizami

Olduqca gözəldir, kəndlinin halı
Duyduqca insanı yandırır, fəqət,
Ona pis görünür gözəl təbiət...

Axsitan

İnsanı yandırır?

Nizami

Yandırır bəli,
İnsan ac olanda, görməz gözəli.

Axsitan

(gülərək)

Yenə də tutmuşdur şair damarın,
Az çəkin dərdini çarıqlıların.

Vəzir

Dünyada şah, şahdır, rəiyyət rəiyyətdir,
Onların payına düşən zəhmətdir.

Nizami

Rəiyyət də canlıdır, insandır, mənə,
Aysız qaranlıqdır hər zülmət gecə.
Onlardır saxlayan, bəsləyən bizi,
Verən suyumuzu, çörəyimizi...

Xaqani

Mən də çox demişəm bunlardan şaha,
Neyləyim, bir sözüm qalmadı daha...

Nizami

Qoy gülsün, açılsın elin qabağı,
Körpə uşaqların yaqut dodağı.
Nəğmələr oxusun hər axşam, səhər,
Xoşbəxt gün keçirsin, yaşasın ellər.
Olmasın kəndlərdə bir nəfər də ac,
Qalxsın duman kimi, getsin ehtiyac?!

Axsitan

(vəzirə)

Çox gözəl, hökmdarda ədalət olsun,
Demək ki, paylayaq xəzinəmizi?

Nizami

Gərək hökmdarda ədalət olsun,
Vətənə, insana məhəbbət olsun.
Yaradan istəyir bizlərdən bunu,
O adil xəlq etmiş insan oğlunu.
Elmin sarayına keçib hücuma,
Göndərək gəncləri Bağdada, Ruma,
Axsın ölkəmizə qoy mədəniyyət,
Baş əysin insana qoca təbiət...

Axsitan

Afərin, işimiz qurtarıb daha!

Vəzir

Mənə, yol göstərmək nahaqdır şaha.
Özünün dərya tək bir kəmalı var,
Şahlar nəslindəndir, böyük hökmdar.

Nizami

Vəzir, təyinində yanılmış ancaq,
Yaraşmır bu yaşa heç vəzir olmaq.
Zöhhak da bununçün düşdü taxtından
Çünki bir-birinə qardaşdır insan.

Axsitan

Bir cürə olmayır bağda hər ağac,
Hər başa qoyulmur dünyada bu tac.

Nizami

Fəqət bir yaratmış hamını torpaq,
Yenə də hər insan torpaq olacaq.
Divara qoyulmuş hər kərpic yəqin
Kəlləsi olmuşdur bir müstəbidin...

Axsitan

(mehriban tərzdə)

Şair, əndazədən nahaq çıxırsan,
Bil ki, Axsitanın qarşısındasan.
Böyük şahənşahlar nəslindənəm mən,
Dənizlər quruyur mənim səsimdən.
Mən səni eylədim saraya dəvət,
Elə bil sənindir bu var, bu dövlət,
Burda oğlunun da çox hörməti var,
Yəqin bu yaxında bir rütbə alar.
Sən də bizim kimi ye, dolan, yaşa,
Aclığın camını vur artıq daşa.

Nizami

Xeyr, ayrılmayır könlüm Gəncədən,
Onun havasıyla böyümüşəm mən.
Hər çinar kölgəsi bir yuvam olmuş,
Quşların nəfəsi ilk havam olmuş.
Ovlamış qəlbimi Göygöllə Kəpəz,
Hanı o yerlərə dünyada əvəz?

Axsitan

Bəlkə şikayət var? De, kimdən, nədən?

Nizami

Çoxdan gileyliyəm mən zəmanədən.
Bu dövran deyildir, qara zindandır,
Əlində boğulan yazıq insandır!..

Axsitan

Nə çıxar deməkdən ey insan, insan,
Özünün səmtinə axacaq zaman...

Nizami

Eyb etməz, ac desin qoy mənə şahlar,
Mənim könül kimi bir dövlətim var...
Xəzinəm ilhamdır, açarın qələm,
Nizami, Nizami söyləyir aləm.
Daxmada ölsəm də bir gün kimsəsiz,
Sabah güləcəklər buna, bilin siz.

Vəzir

Yüksəkdən başladı bu avazını.

Nizami

Mən uşaq deyiləm, sən yum ağzını.

Axsitan

(vəzirə mehriban bir tərzdə)

Bənd olma, şairdir, dəliqanlıdır,
O bir dənizdir ki, hey tufanlıdır...

(sonra üzünü Nizamiyə tutaraq)

Bəs dastan haqqında nədir fikriniz?
Əgər başlasanız inanın ki, siz,
Onun hər sözünə bir mükafat var,
Çox sevir şairi, şeiri şahlar.
Ən böyük ənamlar alacaqsınız,
Sarayda baş şair olacaqsınız.
Farsın kəlamilə bəzə o qızı,
Gövhərlə parlasın, hər sözün ağzı!

Nizami

(düşüncəli və ağır bir tərzdə)

Mən türkəm, deyilən sırğalı bir gül,
Ölərəm, bu əmri etmərəm qəbul.

Türkün qılıncı tək itidir sözü,
Əfsus, öz qədrini bilməyir özü!..
Şahnamə yazmağı bacarmıram mən,
Çünki tərif demək gəlmir əlimdən.
Ürəyin odunda yanmasa əsər,
Sözdə zinət olmaz, qələmdə kəsər!..

Axsitan

Bu tərif deyildir, bir həqiqətdir,
Vətənə, sənətə böyük xidmətdir.

Nizami

Şahlardan nə görmüş bu yazıq vətən,
Yaxşı bax, bayquşdur dörd yanda ötən,
Onlarda görmədim səxavət, hünər,
Dad çəkir şahların əlindən ellər!

Axsitan

Şahın qarşısında az danış bir az.

Nizami

Qoşqarı qılıncla dağıtmaq olmaz.

Axsitan

Səni də Xaqani çıxarıb yoldan,
Bilin ki, açıbdır ağzını şabran.
Divarlar soyuqdur orda buz kimi!..

Nizami

Yeyin ürəkləri siz quduz kimi
zindanlar gücünə yaranmır sənət,
Pula satılmasın gərək məhəbbət!
Aldınız əlimdən doğma dilimi,

Ala bilməzsiniz, şair könlümü!
Böyük insanların şairiyəm mən,
Yazıram qəlbimin istəklərindən.

Axsitan

(kinayə ilə)

Kimlərdir o böyük insanlar görək?

Nizami

Nüşabə, İskəndər, Əflatun, Babək!

Axsitan

Maşallah; İskəndər, Nüşabə, Babək.

Nizami

Çör-çöp yox, dağları qaldırır ürək!

Vəzir

Şaha söz qaytarmaq olmaz, bir dayan,
İnan ki, özünə quyu qazırsan.

Axsitan

Mənim qüvvətimi anlasın burax,
Qoy bilsin, oğluna həsrət qalacaq!..

Nizami

(sarahmış halda)

Bilirəm, şairi çox sevir şahlar,
Onların dərya tək səxavəti var.
Nə etsən etginən, qorxmayıram mən,
Çünki yaralıyam çərxi-fələkdən...

Xaqani

Ah, demək onu da boğacaq saray,
Gərək örtülməsin buludda o ay!

Axsitan

(qəzəbli)

Tüstülər, alovlar çıxır başımdan,
Gərək əllərimi boyasın al qan.

Bu zaman səhnənin dalından səs-küy gəlir. Dərbəndi qışqıra-qışqıra səhnəyə daxil olur.

Dərbəndi

Xəyanət, xəyanət, xəyanət, aman.

Dərbəndinin dalınca bir dəstə adam da gəlir.

Axsitan

Nə olmuş, Dərbəndi, tez eylə bəyan!

Dərbəndi

Ey böyük padşah, ey hökmdarım.

Axsitan

Nə vardır, tez danış...

Dərbəndi

Yox iqtidarım.
Şahıma xəyanət etmiş Məhəmməd.
Özündə duyaraq nədənsə cürət.
İstəmiş xanıma əl atsın bu gün,
Saray camaatı görmüşdür bütün...

Gələn adamlar da başları ilə bunu təsdiq edirlər.

Axsitan

Gör kimlər yığılmış mənim başıma,
Bəxt əli qılınclı çıxdı qarşıma!

Nizami

(Dərbəndiyə)

O mənim oğlumdur, eyləməz bunu,
Şərlə, sənətlə bəslədim onu!..

Dərbəndi

Neyləmək, gözümlə görmüşəm fəqət...

Nizami

Oğlum oğurluğu etməmiş sənət,
Yalanlar, böhtanlar qalacaq sizə,
Girərək qurd kimi ürəyinizə!..

Axsitan

Nizami, şairi etməyin təhqir,
Sözünə məsuldur, o yaxşı bilir!..

Dərbəndi

Şahim, qızınız da görmüşdür bunu,

Axsitan

Yaxşı olmayacaq bu işin sonu!
Tez olun, onları gətirin bura,
Xain kim olmuşsa, çəkilsin dara!..

Məhəmməd, Hicran, İntizar gəlirlər.

Məhəmməd

Nə qulluq, buyurun, böyük hökmdar?

Axsitan

Xəyanət kim etmiş, edin aşikar.
Kimdir ləkə vuran, təxtü-tacıma,
Kimdir balta çalan bəxt ağacıma?!

Məhəmməd

İnanın, saraya gəldiyim gündən,
Öz təmiz qəlbimlə yaşamışam mən...

İntizar

Şahim, aldanmayın, bunlar yalandır.

Məhəmməd

(Dərbəndini göstərərək)

Böhtanlar deməkdə o pəhləvandır!..

Axsitan

(hirsli)

Düz deyin, hər sözün bir sərhədi var.

Məhəmməd

Nə varsa söylədim, böyük hökmdar.

Vəzir

Məncə Məhəmmədir günahkar buna,
Heç yalan danışmaq yaraşmır ona.
Hər şeydən böyükdür şahın namusu.

Məhəmməd

Günahım təmizlik olmuş, doğrusu.
Mənim öz sevgilim, öz ürəyim var,
Könlümün bağında bir çiçəyim var.

Axsitan

Baş tapa bilərmi dinləyən sizi,
Şeytan da anlamaz kələyinizi...

İntizar

And olsun qəlbimə, məhəbbətimə...

Axsitan

(Hicrana)

Söylə, nə bilirsən bu işdən, Hicran?
Xəyanət kim etmiş söylə onlardan?

Hicran

(utancaq)

Şah baba, bilmirəm.

Axsitan

Di, danış söylə.
Necə olmuşdursa, aç bəyan eylə!..

Dərbəndi

Hicran söyləyəcək, deyəcək yəqin,
O safdır, qəlbində yurd salmamış kin.

Hicran

(kəsik-kəsik)

Şah baba...

Axsitan

Utanma, utanma görək.
Az qala partlaya sinəmdə ürək.

Hicran

Şah baba, Məhəmməd eyləməz bunu,
O mənə vermişdir çünki könlünü...

Axsitan

(həyəcanlı)

Könüldən, sevgidən danışır bunlar!..

İntizar

Mənim də qəlbimdə qopdu tufanlar...

Axsitan

Mən gərək yandırım od vurub bura,
Dəhşətdən zəlzələ düşə dağlara.
Qayalar kül ola, syana səsimdən,
Hələ ölməmişəm, Axsitanam mən!..

Nizami

Siz də sevmişsiniz yəqin bir zaman,
Sevən ürəkləri məhv etməz insan!

Axsitan

Gör kimlər göz dikib şahın qızına!..

İntizar, Hicran gedirlər.

Məhəmməd

Könül ixtiyarsız vuruldu ona.

Axsitan

Kiriyin, kiriyin, dağılın yetər,
Qəlbimi çeynəyir, didir şübhələr.
O edam edilsin, düşsün zindana!

Vəzir

(Məhəmmədə)

Xəyanət etməyin şahlar şahına.

Axsitan

Onun bir də başqa günahı vardır,
Çobana-çoğula o havadardır!

Nizami

Zamandır, səbəbkar məncə bunlara,
Zamandır dil verən o üsyanlara!..

Axsitan

Zamandır! Zamandır! Az danış bunu,
Bilmədim oğlunun kim olduğunu!
Qurtardı!..

Nizami

Dayanın! Baxın Allaha!..

Axsitan

Şah əmri bir olar, dəyişməz daha!..

Pərdə

V şəkil

Xaqaninin evi. Evin yan tərəfində yaşıl bir yer. Səhərdir. Evdən yaşıllığa kiçik bir pilləkən enir. Nizami və oğlu yaşıllıqda söhbət edirlər.

Nizami

Nə könlə sirdaş var, nə qəlbə həmdəm,
Nə şair ruhunu oxşayır aləm.
Nə verir təsəlli bu dünya mənə,
Üstümə qurd kimi düşüb zəmanə.
Kimə əl verirəm kəsir əlimi,
Dövranın gərdişi əyir belimi.

(Göydəki buludları göstərir)

Onlar da qaçırlar öz yerlərindən,
Yurdsuz buludlara oxşayıram mən!..

Məhəmməd

Bu gün kədərlisən, atacan, yenə,
Qoy əzab verməsin, bu dərdlər sənə.
Sən açdın dünyanın gözünü sözlə,
Sən baxdın aləmə bir açıq gözlə.
Duyaraq dərdini öncə insanın,
Güldü günəş kimi hər bir dastanın.

Nizami

Sənin taleyindir yandıran məni,
Mənə çox görürlər, can bala, səni.
Görünür, muradsız öləcək ürək,
Deyirdim oğluma toy edəm gərək...

Məhəmməd

Bəlkə də... Vəfasız deyilsə Hicran.

Nizami

Yox, oğul, vəfasız deyil, o inan.
Vəfasız şəhərdir, zamandır, bala.
Onlardır səbəbkar daim bu hala.
Qızıla satılır indi məhəbbət,
Əllərdə saz donur, dillərdə söhbət.

Məhəmməd

Bilmirəm heç niyə sevdim mən onu?
Mən belə bilmirdim eşqin yolunu.

Nizami

Sev, oğul, sevgisiz bir heçdir insan,
Sevginin üstündə qurulmuş cahan,
Üfüqdən qızaran günəşə bir bax,
Aşiqdir, dünyaya işıq salacaq.
Aşiqdir, baş alıb o gedən sular.
Aşiq olmasalar axarmı onlar?
Bax sevmiş, dərdlidir bağçada bülbül,
İşvəylə, naz ilə ona baxır gül.
Odur ki, bahardır, açılmış çiçək.

Məhəmməd

Sevgi başdan-başa məşəqqətlidir.

Nizami

Onunçün hər şeydən o qiymətlidir.

Bu vaxt Xaqani və Sona xala evin pilləkənindən aşağı düşürlər. Onlar Məhəmmədlə Nizaminin çox səmimi söhbət etdiklərini eşidib dururlar.

Nizami

Ah, gənclik gözümdə canlandı yenə,
Mən də çox dözmüşəm eşqin dərdinə.
Mən də çox çıxmışam, yar sorağına,

Səhər şeh düşəndə çay qırağına;
Cananın zülfünə sözlər demişəm,
Bəzən kədərlənib qəm də yemişəm.
Məhəbbət ölməyən əbədiyyətdir,
Onun da beşiyi, bil, sədaqətdir.
Gənclikdir yaşadan o böyük adı,
Onunla fəxr edir, insan həyatı!..

Sona

Yenə də sevgidən danışır kişi,

Xaqani

Onu da öldürür çərxin gərdişi...
Məhəmməd bir dostdur, qardaşdır ona.
Odur ki, hər nə var, deyər oğluna.
Get, çaydan, çörəkdən, hazırla görək.

(Sona gedir. Xaqani üzünü onlara tutaraq)

Nizami, qardaşım, buyurun gedək,
Sona hazırlayıb Allah verəndən.

Nizami

Qəfəsdə quş kimi çırpınıram mən.

Məhəmməd

(uzaqdan gələn Qüruru görür)

Dayanın, Qürurdur, tələsik gəlir,
Yeni nə vardırsa o yəqin bilir.
Görəsən, nə oldu sevimli Hicran?

Qürur gəlir

Qürur

Əzizim, əmrini verdi Axsitan,
Səni salacaqlar indi zindana.
Hicran, hey yalvardı-yaxardı ona.

Məhəmməd

Ah, nədir günahı o yazıq qızın?!

Nizami

Sənin də qəlbində qalacaq arzun.
Didib ürəkləri, yeyir saraylar,
Şahlarda ədalət, mürüvvətmi var?!
Göz yaşı içərək böyümüş onlar,
Qılıncla hökm edir, oğul, qanunlar!..

Məhəmməd

Elə bil zəhərdir günlərim mənim,
Yıxılır dağ kimi, uçur bədənim.

(Xaqaniyə)

Əmican, dözməyir, darıxır ürək,
Nə günah işləmiş deyin o mələk?

Xaqani

Oğul, çox görmüşəm bu zindanı mən,
Bax zəncir yarası getmir əlimdən.
Min qanun sınanmış mənim başımda,
Düşmüşəm saraya cavan yaşımda.

(Nizamiyə)

Bilirəm, gələcək duyacaq bizi,
Gələcək sevəcək hər şeirimizi!..

Nizami

Xəyaldır, uçduqca uçur uzağa,
İnsanlıq xəyalla gedir qabağa...

(Oğluna)

Nə bilim, can bala, nə bilim görək,
Kim bilir Yaradan nə göstərəcək?
Bəlkə də mərhəmət gəlib qəlbinə,
Şah bənd olmayacaq bir daha sənə.

Qürur

Ondan gözləməyin heç zaman bunu,
Yaddan çıxarmayın şah olduğunu.

Sona gəlir

Sona

Durmayın, di gəlin, hazırdır yemək

Hamı Xaqanının dalınca gedir. Məhəmməd arxada gedir, ah çəkir.

Məhəmməd

Nə qədər ağırdı sevib, sevilmək
Hicran, Hicran.
Sənsiz gülməyəcək Məhəmməd bir an.

Sona birdən onun dalda qaldığını gördü

Sona

Ay oğul, gəlsənə, nə olub sənə?
Azarın, bezarın qoy gəlsin mənə.
Dərd çəkmə, arıya oxşayır qızlar;
Onların həm balı, həm tikanı var.

Məhəmməd

Axsitan zindana salacaq məni,
Hıçqırıq boğacaq o məhbubəni.

Sona

Qırx illik dostluğu vuraraq yerə,
Əmini o saldı ağır dərdlərə.
Qurddan törəyənlər, qurd olmaz məyər?
Nə bilim İlahi bir tədbir çəkər.

Onlar asta-asta pilləkənlərlə çıxırlar. Sona axıra qalır. Bu vaxt çoban gəlir. Sonanı görüb sevinclə

Çoban

Salam, Sona xala!

Sona

Sənsən, ay bala?
Səndən uzaq olsun hər dərd, hər bəla...

Çoban

Xala, Yasəməndən mənə bir xəbər,
Beynimi, qəlbimi yeyir qəm, kədər!..

Sona

Körpə tərlan kimi yazıq dardadır,
Gecə də, gündüz də intizardadır.
Ah, görüm sarayı qalsın virana,
Şah onu hədiyyə verir İrana!..

Çoban

Hədiyyə. İrana. Yazıq Yasəmən,
Hələ ölməmişəm bu dağlarda mən!

Çox sağ ol, ay xala, söylədin bunu,
İnan, unutmaram ömrüm uzunu!..

(O, Sonaya baş əyib gedir. Sona onun dalınca)

Sona

Ona kömək eylə böyük yaradan,
Könlü yasdan çıxsın, qəlbi qaradan!..

(Sona otağa girir)

Səhnə bir müddət boş qalır. Bir az sonra üç nəfər saray əsgəri gəlirlər.

Birinci Əsgər

Adamın ürəyi gəlməyir, vallah,
Bilmirəm nə deyim, bu zalım şaha!..
Bu cürə oğlana zindan yaraşmaz.

İkinci Əsgər

Vəzifə başında az deyin bir az,
Bu şahın əmridir, aparaq gərək.

Birinci Əsgər

Hələ sevgilisi, o gözəl mələk,
Bunlar dərd olacaq böyük şairə.
Ah, torpaq, aralan, mən girim yerə,
Onun gözəl, göyçək dastanları var.
Oxuyur şeirini gəlinlər, qızlar,
Çox sevir oğlunu, onsuz durarmı,
Şairin qəlbinə dəymək olarmı?

İkinci Əsgər

Az danış, az danış, di çağır görək,
Səslə Məhəmmədi biz gedək gərək!

Üçüncü Əsgər

Kəndlinin damarı tutmuşdur yenə,
Sözsüz baxmalıyıq biz şah deyənə!

Birinci Əsgər

Kənd şair yetirir, saray öldürür,
Dünyanı hər zaman günəş güldürür,

İkinci Əsgər

Az danış, az danış, di çağır görək,
Səslə Məhəmmədi, tez gedək gərək.

Birinci Əsgər

Çağırram atası çıxsa eşiyə
Bir söz deyəmmərəm mən o kişiyə?

İkinci Əsgər

Böyük hökmdara etmə xəyanət,

Birinci Əsgər

Sizlərdə xalvarnan olur məhəbbət.

İkinci Əsgər

Bu ki, lap xaindir, danışma alçaq,

Birinci Əsgər

Xainlər çox gözəl yaşayır ancaq

İkinci Əsgər

Şahın əsgəriyik, nökəriyik biz,
Ona sadiqlikdir hər vəzifəmiz.

Birinci Əsgər

Məhəmməd zindana düşməsin gərək!

Üçüncü Əsgər

Sən şahın əmrini saymırsan demək?

Birinci Əsgər

Mən saymıram, bəli.

İkinci Əsgər

(Əlini döşünə döyür)

O üsyan eyləyir, ölməmiş Əli
Xain ölməlidir, çək qılıncını,
Kim məğlub olarsa qoy çıxsın canı!

Birinci Əsgər

Sarayda olsam da, mən kişiyəm, gəl,
Sənsə namussuz ol, dövlətdən, yüksəl!

(Onlar qılınc çəkib vuruşurlar).

Üçüncü Əsgər

Salın qılıncları.

Onlar dayanırlar... səsə evdən Nizami, Xaqani çıxır.

Nizami

Bu nədir, qardaşlar? Nə edirsiniz?

İkinci Əsgər

Belə etməliyik şah yolunda biz.

Üçüncü Əsgər

Xaindir, qoymadı köçsün dünyadan!..

Birinci Əsgər

Məncə yaşatmağa yaranmış insan!..

İkinci Əsgər

(Əlindəki fərmanı Məhəmmədə verərək)

Buyurun, hökmdar vermişdir fərman,
İndi getməliyik, gözləmir zaman...

Məhəmməd fərmanı oxuyur, atasının üzünə baxaraq

Məhəmməd

Demək ki, zindana düşməliyəm mən?
Bilirdim, bu gələr şahın əlindən.

(Əsgərlər onu aparmaq istəyirlər. Nizami sarsılmış halda)

Nizami

Dayanın, dayanın, durun, cəlladlar,
Gözümün işığı bircə oğlum var!

Xaqani

Amandır, dəyməyin, son pənahına.
O bir ilhamdır ki, verilmiş ona!..
Onunla yaranmış böyük əsərlər,
Deyin ki, tapmadıq, yoxmudur hünər?..

Üçüncü Əsgər

Şair, ləngitməyin, dayanmaq olmaz,
Böyük hökmdarın əmri pozulmaz.

İkinci Əsgər

Bizim işimiz var, buraxın gedək.

Nizami

Gör nələr törədir bu zalım fələk!

Məhəmməd

Ata, sən bənd olma, getməliyəm mən,
Bilirəm ağırdır bu iş ölümdən,
Neyləyək, belədir vəfasız həyat,
Qayıt Gəncəmizə əsərlər yarat!

Nizami

Mən hara qayıdım, aman, can bala,
Ümidim, pənahım, mehriban bala!
Səni də çox gördü mənə Axsitan
Neyləyim, milçəyi fil etmiş zaman!..

İkinci Əsgər

Şairim, unutma bir əsgərik biz,

Nizami

Qorxmayın, alınmaz böyük rütbəniz!

İkinci Əsgər

(Məhəmmədin əlindən tutaraq)

Buraxın, hirslənər böyük hökmdar...

Xaqani

Yazıqlar, sizin ki, bir qarnınız var!

(Hər iki əsgər Məhəmmədin qolundan yapışırlar)

İkinci və Üçüncü Əsgər

Qurtarın, qurtarın, yaramaz daha
Xəyanət etmərik, biz böyük şaha!..

Məhəmməd

Ata, son dəfədir, gəl öpüşək, gəl.
Dünya sədaqətə olmasın əngəl.
Bəlkə görüşmədik kim bilir bunu,
Unutma oğlunun, ata, ruhunu!

(Onu atasından aralayıb aparırlar. Nizami onun dalınca)

Nizami

Dağıldı hər ümid, uçdu hər dilək,
Açmışdır qapını amansız külək!
Ah, neçin doğuldum bu dünyada mən,
İnsan bir cəsəddir, zəmanə kəfən!
Heç kəs oğul dərdi, görməsin aman,
Sinəmdə ağlayır sanki bir ümman!

Pərdə

VI şəkil

Axşamdır. Şamlar yanır. İntizar təkdir. O çox pərişan görünür.

İntizar

Özüm də bilmirəm nə eylədim mən.
Diksinir ürəyim öz əməlimdən.
Günahsız zindana düşdü Məhəmməd,
Məni öldürəcək hər zaman bu dərd!..
Günbəgün saralır, solur camalım,

Ah, nədən böylə tez dəyişdi halım?!
Yedi gəncliyimi, yordu ehtiras,
Oxşamır ruhumu bu nazəndə yaz!..
Yaşamaq mənasız bir şeydir mana,
Neyləyim, mən sirdaş olmadım ona!..

Axsitan

(gəlir)

Yenə pərişandır Dərbənd gözəli?
Onu tək yaratmış xilqətin əli!
Söylə, nə olmuşdur sevimli nigar,
Neçin kədərlidir maral baxışlar?

İntizar

Heç bir şey... Deyəsən, xəstəyəm bir az.

Axsitan

O hansı dərddir ki, dəva tapılmaz?
Qocalmış olsam da inan ki, yenə,
Pərəstiş edirəm gözəlliyinə!..

İntizar

Pərəstiş!.. Pərəstiş!.. Nə var ki, daha.

Axsitan

Utanma, dərdini aç, söylə şaha.

İntizar

Çoxmu istəyirsən məni doğrudan?

Axsitan

Şübhə yaraşmayır heç sənə, canan!
İnsan qocaldıqca daha çox sevər,
Zənnimcə, görmüşdür eşqimi dilbər!

İntizar

Nahaq, zülm etməyin incidir məni,
Qorxuram hörmətdən salalar səni!

Axsitan

Mən qəlbim deyəni etmişəm ancaq...

İntizar

Bütün Şirvan əhli təşvişdədir bax;
Deyirlər Məhəmməd düşüb zindana,
Zənnimcə bu layiq deyildir sana.

Axsitan

İntizar! İntizar!.. Neyləyər onlar?
Mənim öz istəyim, öz əməlim var.
Tökülün, deyərək əmr etsəm əyər,
Tökülər ulduzlar, boş qalar göylər.
Hökmümlə yaşayır Şirvan mahalı,
Qoy fikir yormasın gözəl maralı!..

İntizar

Sonra bir şey çıxar, azad et onu,
Nizami çox sevir bircə oğlunu!..

Axsitan

(Bu sözlərdən şübhələnərək)

Nizami əmrimə qarşı durarkən,
Qəlbinə bir yara vurmalıyam mən!..

İntizar

Sözümü yeremi!..

Axsitan

Di yaxşı, baxaram, görək...
Bununla özünü yormasın mələk!..

İntizar

Sözümü yerəmi?..

Axsitan

Salmıram, inan,

İntizar

Hər nə demişdirsə, etmiş Axsitan!..

Axsitan

Söylədin xəstəyəm... get dincəl bir az.

(O, İntizarı aparır. Sonra özü düşüncəli halda qayıdır)

Düzdürmü, qadına inanmaq olmaz?!
Bəlkə də Dərbəndi anlamış bunu,
Məhəmməd bir əsir eləmiş onu?!
İçimdə ilan tək şübhə dik durur,
Ürəyim yenə də şiddətlə vurur?
Bəlkə də qocalıq xoş gəlmir ona?!
Qarşı durmamışam bir arzusuna!
Yox, qəlbim, şübhənin çıx zindanından,
Eşqinə xəyanət etməz bu canan!..

Vəzir gəlir

Vəzir

İranlı qonaqlar durmuş müntəzir!..

Axsitan

Qəlbimdə buz kimi bir külək gəzir...
Çağırın, çox şaddır deyin hökmdar!..

Qonaqlar gəlirlər

Birinci Qonaq

Şirvan hakiminə çoxlu salamlar!

İkinci Qonaq

Onun dünya qədər səxavəti var!..

(Onlar şahla görüşürlər. Şah razılıq edir)

Birinci Qonaq

Şahımız almışdır məktubunuzu,
Təşəkkür eyləmək azdır, doğrusu!..

(Şaha məktub verir)

Axsitan

İnanın, çox şadam, çox şadam ki, mən, –
Bizə qonaq gəlib dost bir ölkədən!

(Vəzirə)

Al oxu, məktubu.

(Vəzir məktubu alıb oxuyur)

Vəzir

Salam olsun sizə, ey şahi-Şirvan!
Aldım məktubunu... çox şadam, inan.
Qoy daim ucalsın təxtü-tacınız,

Heç balta görməsin bəxt ağacınız!..
Mənuçöhr varisi, böyük Axsitan.
Sənin lə fəxr etsin həmişə Şirvan!
Xoş gündə, pis gündə qoy var olaq biz,
Döyüşdə siz olun ilk sərkərdəmiz!..
Daş-qaşla bəzənmiş bir kəmərim var –
Onu göndərirəm sizə yadigar!..
Yaddan çıxmayacaq bu dostluq bir an,
Sizə minnətdardır həmişə İran!..

İkinci Qonaq məktub oxunub qurtardıqdan sonra işarə edir, kəməri gətirirlər. Şah kəməri alır.

Axsitan

Şaha bəxşeyişim gözəl bir qızdır,
O yerdə çiçəkdir, göydə ulduzdur!
Maraldır... böyümüş Şirvan dağında,
Bülbül tək oxuyur yaşıl bağımda
Axır baxışları piyalə kimi,
Gülür yanaqları şux lalə kimi!..

(üzünü vəzirə tutaraq)

Sabah xanəndələr versin səs-səsə,
Getsin şahənşaha o gözəl kəniz!..

Birinci Qonaq

Hər zaman çox olsun səxavətiniz!

(onlar gedirlər)

Axsitan

Yıxdı Nizamini verdiyim fərman,
Artıq düşəcəkdir dağın başından.

Oğlu zindandadır... Dünyadan köçür,
Atadır, gözünə qaranlıq çökür...

Vəzir

Onun vüqarını bu qırar ancaq,
Zənnimcə, dastanı indi yazacaq!

Axsitan

Bəs necə, şahların nəslindənəm mən.
Sıxsam yaş tökülər daşın gözündən!
İstədi baxmasın şahın əmrinə!

Vəzir

Durmaz, yanınıza gələcək yəqin!

Axsitan

Qoy bilsin, hakimi mənəm ölkənin!

Xaqani tələsik içəri girir. O, şaha

Xaqani

Aman! Dağlamayın şair qəlbini,
Sevir Allah qədər Məhəmmədini...
Cavandır vurulmuş Hicrana əlbət,
Əzəldən qanuna sığmır məhəbbət.
On gündür ayrılıb kağız, qələmdən,
Qurtarın siz onu qəmdən, ələmdən!..

Axsitan

Dastanı alınmı görək boynuna?

Vəzir

(şaha)

Yazarsa, mərhəmət eyləyin ona.

Xaqani

Şair ilhamilə yaşasın gərək,
Qılıncın gücünə danışmır ürək.
Oxuyur şeirini hər tərəf, hər yan,
Onun sənətinə baş əyir İran!..

Axsitan

Yazmasa, oğlundan çıxacaq əli!

Nizami tələsik içəri girir.

Xaqani

(hirsli)

Darıxma, uçacaq zülmün heykəli!

Nizami

Söz açma, qardaşım, söz açma ona,
Onlar nə vermişdir Azərbaycana!

(şaha)

Poladı sanmayın mum kimi yumşaq,
Vüqarlı böyütmüş məni bu torpaq.
Kəpəzin qoynunda böyümüşəm mən!
Almışam dərsimi babəklərimdən!

Axsitan

Demək ki, sözümdən çıxırsan yenə?

Vəzir

Şair! Baxmalısan şahın əmrinə!

Nizami

Mən hara! Şah hara? Yaxşı baxın bir,
Günəş gələn zaman qaranlıq gedir!
Ədalət, məhəbbət axtarır qəlbim,
Neyləyim, qırılmış sazımda hər sim!

Axsitan

Bu tərslik çox baha oturar inan?

Nizami

Sabah dağılacaq bu çən, bu duman!
Dövrün daş qəlbində bir gövhərəm mən,
Yenə çıxacağam zülmət içindən!..

Xaqani

Gələcək namusla sevəcək onu,
Bu yer əziz tutmuş hər vaxt oğlunu!

Axsitan

(hirsli)

Əmr edin qurulsun qoy dar ağacı.
Parlasın şöhrətlə şahların tacı!
Qoy qalsın ömürlük oğluna həsrət,
Düşsün alovlara, yansın məhəbbət.

Nizami

Öldürün! Sizindir bu taxt, bu dövran,
Şaha yalvarmamış Nizami bir an!

Nizami və Xaqani çıxırlar.

Axsitan

(Nizaminin dalınca baxdıqdan sonra)

Gör kimin oğlunu sevmişdir qızım?

(kiçik pauza)

Bəs, vəzir qəlbimdə qalacaq arzum?
De görüm Dərbəndi bacarmaz bunu?

Vəzir

Bu gün başqa sayaq görmüşəm onu.

Axsitan

Necə?

Vəzir

O da məcnun olub düşüb çöllərə.

Axsitan

Kimə aşiq olub?!

Vəzir

Qızınız Hicrana... o şux dilbərə...

Axsitan

Ah, nankor, namussuz!.. Görürsən o da!..

Vəzir

Şahım yaxşı adam azdır dünyada?

Axsitan

Gör kimlər yığılıb, mənim başıma
Bəxt əli qılınclı çıxdı qarşıma!

Yerlər də, göylər də düşməndir mana,
Kainat gözümdə dönmüşdür qana!..

Vəzir

Şahım, gecə keçmiş dincəlin bir az,
Gülsün bəxtinizə çiçəkli bir yaz.
Siz, böyük şahsınız, hökmdarsınız,
Bu dünya durduqca siz də varsınız...

Vəzir onu yataq otağına aparır. Şahı qoyub qayıdır. Səhnə bir qədər qaranlıqlaşır.

Dərbəndi gəlmədi... Gəlmədi axmaq.

(şah tərəfə)

Səni böyrü üstə o nər yıxacaq...
O da bir danadır, kəlləsi boşdur.
Hansınız ölsəniz, yenə də xoşdur...

Dərbəndi əlində qılınc ləübalı halda gəlir.

Gəldinmi, qardaşım? Ay yazıq, yenə,
Başqası göz dikmiş sənin sevginə!

Dərbəndi

Sən şaha dedinmi sevir Hicranı?

Vəzir

Dərbəndi... Dərbəndi... Adil şah hanı?

Dərbəndi

Söylə nə olmuşdur?

Vəzir

Nə olacaqdır?
Görünür Hicranı şah alacaqdır!

Dərbəndi

Ah quduz canavar... Aman, qardaşım,
Dağıldı hər arzum... Ağrıyır başım!..

Vəzir

Sus, yavaş danış bir, dinlə sözümü...

Dərbəndi

Elə bil nizələr deşir gözümü.

Vəzir

Bu gecə, şah ölməsə əyər,
Bütün tədbirlərim məhv olub gedər.
Sən toxta özünə... Odur, yatır bax.
Qaldır qılıncını, məhv olsun alçaq!..

Dərbəndi

Ölərsəm, bəs onlar, böyük əsərlər?

Vəzir

Eyb etməz, qardaşın yığıb düzəldər.

Dərbəndi

Razıyam, razıyam... İnan, bu saat
Ölüb gedəcəkdir o murdar həyat!..

Vəzir pərdə dalında gizlənir. Dərbəndi siyirmə qılınc şahın otağına tərəf gedir. O, qapıya yaxınlaşar-yaxınlaşmaz içəridən şahın səsi gəlir. Qapı taybatay olur. Dərbəndi açılmış qapının sağ qolunun dalında gizlənir.

Axsitan

Kimsiniz? Kimsiniz? Boğmayın, aman,
Ah, məni öldürür, Məhəmməd, Hicran!..
Mən hələ güclüyəm, Axsitanam mən,
Dənizlər qan olmuş mənim səsimdən.
Dağılın, buraxın, ah boğazımdan,
Nədir şırıl-şırıl bu tökülən qan?!
Bunlar doğrudurmu, yuxumu, nədir?
Yoxsa məni boğan zülmət gecədir?..

Dərbəndi qapının dalından çıxır.

Dərbəndi

Dayan, yuxu deyil, vurmasın gərək,
Bütün sevgiləri öldürən ürək...

Axsitan

Dərbəndi. Bilirdim... Sənsənmi alçaq?
Ah mənim üstümə gələnə bir bax!

Dərbəndi

Onu, sən deyilsən, qılınc bildirər!

Axsitan

(istehzalı)

Yox birdən, Dərbəndi məni öldürər!

Onlar qılıncla vuruşurlar, Dərbəndi yıxılır.

Aldı cəzasını... Söhbət də bitdi!..
O, ölü gəlmişdi, ölü də getdi!

İntizar

Didir ürəyimi, yeyir həyəcan...
Ah, nədir gördüyüm bu qılınc, bu qan?!
Şahim, nə olmuşdur, de bunlar nədir!

Axsitan

Odur!.. Öz ağzımdan düşən tikədir!
Vurmaq istəyirdi... Mən vurdum onu,
Qoy bunlar sıxmasın sənin könlünü,
Ölmək istəməyən, öldürsün gərək,
Yenə də mənimlə əlləşir fələk!..
Gör kimlər yığılıb mənim başıma!
Bəxt əli qılınclı çıxdı qarşıma!
Göylər də, yerlər də düşməndir mana,
Kainat dönmüşdür gözümdə qana!..
Qoy aləm bilsin ki, Axsitanam mən,
Dağlar suya dönür mənim səsimdən!..

(Onlar gedirlər. Vəzir gizləndiyi yerdən çıxıb onun dalınca)

Vəzir

Görünür ölüm də girişmir şaha,
Uçdu bir ümidim, qalmadı daha!..

Pərdə

VII şəkil

Güllü, çiçəkli bir bağça. Bağçanın ortasında gümüş fəvvarəli bir hovuz vardır Səhərdir. Kəniz qız həzin bir nəğmə oxuyur. Hovuzun kənarında Kosa və Sofi Həsən söhbət edirlər.

Kəniz qızın nəğməsi

Yatan baxtım dursana,
Nə olubdur de sana?
Aparırlar elimdən, –
Ayırırlar gülümdən.

Bir maralam dağ hanı?
O gəzdiyim bağ hanı?
Tufan qopar, əs, külək,
İnsafsızdır bu fələk!

Harda qaldı o çoban,
Qılınc vuran, ox atan?
Aparırlar elimdən
Ayırırlar gülümdən...

Kosa

Yenə də ağlayır yazıq kəniz bax,
Bağrımın başına sanki çəkir dağ.
Neyləyim... dövlətin olsaydı əyər
Sənin də qəlbinə heç dəyməzdilər...
Yoxsulsan, belәsən, satılacaqsan,
Gündə bir qucağa atılacaqsan...

Sofi Həsən

Oğul, bu qanundur qoca dünyada,
Dağ kimi oğlanlar gedibdir bada.
Odur ki, göz yumub bu əziyyətə,
İnsan baxmalıdır əbədiyyətə...

Kosa

Qoy görək, qoy görək... Ay Sofi Həsən
Elə sən də bizi ora çəkirsən?

Sofi Həsən

Nə varsa ordadır!.. Böyük Yaradan
Bir saf gözəlliklə gülür hər zaman.

Dünya vəfasızdır, de, nə var burda?
Görünməz bir aləm yaşayır orda!..

Kosa

Sənin nə vecinə... bir çöl, bir çadır,
Az yesən, çox yesən bir xurma çatır.
Mənim tək ayrılıb evdən, eşikdən,
Bir parça çörəyə heç işləmirsən?
Min cürə müsibət görürəm hər gün,
Doğrusu, bezmişəm saraydan bütün...
Görürsən? Ayrılıb nişanlısından.
Bir şaha bəxşeyiş gedir o canan!..

Sofi Həsən

Gəl sən də mənimlə ora gedək, gəl,
Göylərlə məşğul ol, göylərə yüksəl,
Baxıram gecələr, səyyarələrə,
Açılır gözümdə min cür mənzərə.
Bilirəm insanın taleyini mən,
Saysız ulduzların tərpənməsindən.
Yunanda bir alim olmuş qabaqlar,
Bu, ondan qalıbdır bizə yadigar...

Kosa

Yox, aşna göylərdə nə işim vardır,
Bu yer də, o göy də qəlbimə dardır.
Əgər qızılın var, azad et onu,
Sevindir bir yoxsul qızın könlünü!

Sofi Həsən

Nə qızıl? Mən şaham, tacirəm nəyəm?
Yaradan bir şamdır, mən pərvanəyəm.
Bütün qızılların anasıdır bax,
Yenə ayaqlanır bu qara torpaq!

Mən ona aşiqəm, o ülviyyətə,
Odur ilham verən hər bir sənətə.
Hər şeydə, hər yanda onun özü var
Onun nəfəsi var, onun sözü var!..

Kosa

Gəl, qardaş, dərinə salma sən məni,
Yorğunam, yatmadım bütün gecəni.
Gözlə, Nizami də gələcək əlbət,
Mən getdim!.. Onunla edərsən söhbət...

(Gedir. Sofi Həsən onun dalınca)

Sofi Həsən

Yorğunsan... Get dincəl, bir mənanmı var?
İnsan sayılmayır yaratmayanlar...
Ey Tanrı, ey Allah, bilməyirəm mən,
Onu insan deyə xəlq etdin nədən?!

Onun sözləri bitər-bitməz Nizami gəlir. Ona tamaşa edir. Saray adamları o tərəf-bu tərəfə gedib gəlir. Onların vacib bir şey üçün gedib gəlmələri sezilir. Sofi Həsən getmək istərkən, Nizami onunla qabaqlaşır

Nizami

Neçin hirsləndiniz o yazığa siz?
Dünyada olmayır heç şey səbəbsiz.
Bəlkə savadsızdır, bilməyir dərin
Böyük mənasını siz deyənlərin?

Sofi Həsən

(onu tanımır)

Səndəmi belәsən... Tərk eylə məni...

Nizami

Olmazmı bir qədər dinləyim səni?

Sofi Həsən

Eşitdim Nizami gəlib Gəncədən,
İstədim onunla bir görüşəm mən.
– O şeyxdir... Danışmaq mənasız olmaz,
Dedim ki, ürəyim açılsın bir az...
Görünür getmişdir, gecikdim yəqin,
O bir şöhrətidir bu təbiətin:..

(Getmək istəyir. Nizami əvvəl bilmir nə desin, sonra yarı utancaq bir halda)

Nizami

Dayanın, getməyin... Nizamiyəm mən...

Sofi Həsən

Məni aldatmayın, o, sən deyilsən!?
Bir şeyx paltarında o olsun gərək!..

Nizami

Ləbbadəm yoxsa da... o, mənəm, gerçək...

Sofi Həsən

(onun üzünə mənalı baxaraq)

Sizdəmi düşdüdüz bu saraylara,
İlham sığışdımı bu dörd divara?
Buraxıb mənalı o sakitliyi,
Söyləyin, sarayda tapdınız nəyi?!

Nizami

Xeyr, saraylara düşmədim bir an,
Əzəldən həmdəmim olmuşdur insan.

Sofi Həsən

Demək ki, atdınız gözəllikləri?

Nizami

Sofilik, əxilik əzəldən bəri
Bir məslək olaraq dar gəlmiş mana,
Başqa yol lazımdır indi insana!..

Sofi Həsən

O nədir? Nə yoldur, söyləyin görək?

Nizami

İnsan qılınc çəkib vuruşsun gərək!
Hər zülmə döş gərib açmasa meydan, –
Haqqı tapınayacaq bu yazıq insan!..

Sofi Həsən

Kiriyin, kiriyin... Tökülməsin qan,
Xudanın eşqiylə dolansın cahan!..

Nizami

Dövrün çaldığını anlayın barı,
– Kim qızıl gəzirsə, yarır dağları!..

Sofi Həsən

(onunla görüşə heyfsilənir kimi)

Sağ olun!.. Çöllərin aşiqiyəm mən,
Min məna tapıram hər gecəsindən...

Gedir. Xaqani gəlir. Nizami onun
dalınca mənalı-mənalı baxır

Xaqani

Burda Sofi Həsən deyirlər ona.
O, aşiq yaranmış bu asimana!..

Nizami

Yazıqlar... Səhrada nicat tapırlar,
Mənasız olsa da bir mənası var!..

Bu zaman xanəndə səsi gəlir. Səhnə adamla dolur. Şah, vəzir, gəlmiş qonaqlar görünürlər. Kəniz qız çox pərişandır. O, şahın ayaqlarına düşüb yalvarır.

Kəniz

Sən Allah, sən Allah!.. Dəyməyin mana
Aman, göndərməyin məni İrana!
Mənim öz sevgilim, öz nişanlım var,
Yazığam, çəkməyin sinəmə dağlar!..

Axsitan

Qız, boşdur, ağlama!.. Ayağa dur sən,
Ürəyim yumşalmaz... Bil, gedəcəksən!
Olarsan bir böyük şahın hərəmi,
Ləzzətlə vurarsan başa aləmi!..

Kəniz

Bəs mənim nişanlım? O igid çoban!

Axsitan

Qurtardın çobanın patavasından!

Kəniz

Yazığam, dəyməyin, qurtarın məni!

Vəzir

Böyük şah baş hərəm edəcək səni!

Kəniz

(ona, buna yazıq-yazıq baxır)

Deyirlər Gəncədən şeyx gəlib, hanı
Osa da qurtarsın yazıq insanı!

Nizami

(Kənizi ayağa qaldırır)

Dur, qızım! Ağlama, ey bəxti qara,
Sənin də gül ömrün tutuldu xara.
Bəsdir, sızıldama, alışdı sinəm,
De nədir, istəyin, ey taleyi kəm?!
Bir şeymi umursan, de zəmanədən?
Çox yaxşı bələdəm bu dövrana mən!..

Axsitan

Yetər, danışmayın... buraxın onu...

Nizami

Unutma bir yazıq qız olduğunu!

(o, belindən kəmərini açır)

Bu onun qiyməti... buraxın getsin,
Güldür, bülbülüylə murada yetsin!..

Axsitan

Satılmır, boxşeyiş verilir şaha.

Nizami

Dünyaya bir sözüm qalmadı daha!
Bəxşeyiş verilir canlı bir insan,
Tfu hikmətinə, ey çərxi-dövran

(O, bir saray əsgərinin belindən qılıncı çəkib kənizə verir)

Qızım, Nüşabənin bacısısan sən,
Al, qoru haqqını hər bir düşməndən!..

(Ortada təşviş əmələ gəlir. Kəniz qılıncı alır.)

Kəniz

Əllərim titrəyir... titrəyir... ata!..

Nizami

Bir açıq gözlə bax sən bu həyata!
Bil ki, qorunmaqçün bağçada hər bir
Qızıl gül çiynində tikan bitirir!..

Bu vaxt ucaboylu, enlikürək, siyirməqılınc bir çoban gəlir. O, düz adamların ortasına yeriyir, hamını heyrət bürüyür.

Çoban

(kənizi görərək)

Yasəmən!.. Yasəmən!..

Yasəmən

Səni gözləyirdim daş qəfəsdə mən,
Görünür bivəfa deyilmiş çoban!..

(ağlayır)

Çoban

Ağlayıb qəlbimə dağ çəkmə aman!

Yasəmən

Bəxşeyiş verirlər məni bir şaha!..

Çoban

İnan ki, zərbimdən uçar bu dünya!

(Şaha)

Şahım, bu yerlərin öz adəti var,
Namusla yaşamış bizim babalar!..

Nizami

(Xaqaniyə)

Qardaşım, Xaqani, sən ona bax bir,
Sanki dağ yerindən tərpənib gəlir!
Onda Fərhadımın şücaəti var!

Xaqani

O dağlar oğludur, sədaqəti var!

Axsitan

Onu rədd eyləyin... gedəcək kəniz!..

Çoban

Çarıqlı olsaq da, namusluyuq biz!..

Çoban Yasəməni aparmaq istəyir. Əsgərlər ona mane olur. Vuruşma düşür. Bir neçə əsgər yaralanır. Şah, vəzir özlərini itirirlər.

Vəzir

(şaha)

Şahım, o güclüdür... bir pəhləvandır,
Sarayı uçurar, durun, amandır!..

(Vuruş dayanır)

Axsitan

(bir qədər düşünərək)

Verrəm nişanlını... bir şərtlə fəqət...

Çoban

Canımı alsa da xoşdur məhəbbət!..

Axsitan

Damda bir pələng var... öldürsən əyər,
Özünün olacaq o nazlı dilbər!..

Yasəmən

(şaha)

Şahım, qəsd etməyin ona, amandır.

Xaqani

Qızım, heç qorxma sən, o pəhləvandır!..

Axsitan

(çobana)

Çoban, razısanmı?

Çoban

Razıyam, ey şah.

Yasəmən

Kömək et, Allah!

Axsitan

Aparın onu!

Çoban

Bəlkə xoşbəxtlikdir bu işin sonu!..

(Çoban Yasəmənə baxıb gedir. Onu aparırlar)

Vəzir

(şaha)

Sağ çıxmaz... kənizi aparacaqlar...

Kəniz

Onu böyütmüşdür qartallı dağlar!

Xaqani

Kim bilir, nə oldu biçarə çoban?
Ah, yazıq məhəbbət. Ah, yazıq insan!

Çoban sağ əli ilə boğulmuş pələngi qaldıraraq gətirir. Hamını təəccüb götürür.

Çoban

(şaha)

Bu da, bu, böyük şah... Nə sözünüz var!

(Pələngi onun ayaqları altına atır)

Axsitan

Apar, özünündür o gözəl nigar!..

(Sonra vəziri kənara çəkərək)

Vəzir, o təhlükə olacaq bizə!
Əsgərlər öldürsün gəlib üz-üzə!

Çoban Yasəməni alıb yola düzəlir.

Nizami

(çobana)

Get, oğlum, sədaqət yaraşır sana,
Alqış bu torpağın igid oğluna!

Axsitan

(əsgərlərə)

Qoymayın sağ getsin... öldürün onu,
Çəkin qılıncları, kəsin yolunu!..

Çoban Yasəmənlə bir az uzaqlaşırkən,
əsgərlər onun dalınca düşür.

Birinci Əsgər

Ey, dayan, bir dur!

Çoban

(səsi gəlir)

Kim yaxın gələrsə, bil həlak olur!..

Onlar vuruşa-vuruşa yenidən səhnədə görünürlər. Çoban qızı qoruyur. Birdən oxla vururlar. O, Çobanın qolu üstünə düşür.

Çoban

(vuruşa-vuruşa)

Yasəmən!.. Yasəmən! Yazıq Yasəmən!..

Yasəman

Çoban, igid çoban... məhv oluram mən.

(İki-üç əsgər Çobanın üstünə gəlir)

Çoban

(onlara)

Çəkilin!.. Ölməmiş, o sağdır, aman...

Vuruşa-vuruşa səhnədən çıxırlar.

Nizami

(çobanın dalınca baxaraq)

Nə günlər yaşayır gör böyük insan!
Alır xəyalını payız dumanı...
Bəs mənim ümidim, Məhəmməd hanı?
Onun da sevgisi dağıldı belə,
Tutuldu o gülüm acı bir yelə!..

Xaqani

Bu axşam Məhəmməd asılır dardan,
Mərhəmət görmədik pərvərdigardan.

Nizami

Ah, nələr çəkmədi yazığın başı,
Ömür sarayımın tökülür daşı.
Saralır gözümdə çiçəklər, otlar,
Elə bil üstümə gəlir buludlar.

Pərdə

VIII şəkil

Sıldırım dağlar arasında bir düzənlik. Axşam üstüdür. Dar ağacı qurulmuşdur. Dar ağacının yanında iki məzarçı bir məzar qazır. İş qurtarmaq üzrədir. İkinci və üçüncü saray əsgərləri gəlirlər.

İkinci Əsgər

Tez olun!.. Tez olun!

Üçüncü Əsgər

Şah gələcəkdir,
Bunlara sevinib, o güləcəkdir!..

Birinci Məzarçı

(mənalı)

Ölümlə sevinməz insan ürəyi!

İkinci Əsgər

(acıqlı)

Qəlbində qalmasın şahın diləyi
Bu onun əmridir!..

İkinci Məzarçı

Bilirik, bəli.

Üçüncü Xidmətçi

Qoy bunlar gəlməsin sizə gülməli,
Tez olun!.. Tez olun!..

Birinci Məzarçı

Biz sənətkarıq.
Şah hara əmr etsə, biz orda varıq.

(Əsgərlər gedirlər. Məzarçılar öz işləri ilə məşğul olurlar)

Birinci Məzarçı

İndi çəkiləcək Məhəmməd dara,
Daş ürək veribdir Tanrı şahlara.
O, şahın qonağı olsa da belə,
Həmişə yaxşılıq etmişdir elə...

İkinci Məzarçı

Kəndlinin xətrini çox istəyərdi,
Vəzirə, onlar da candır, deyərdi.
Qoymazdı vergilər çoxalsın, artsın,
Hər yetən kəndlini bir yana dartsın.

Birinci Məzarçı

Nə bilim belədir... cavandır yazıq
Zəhrimar axşam da yetişir artıq.
İnsan ot kimidir, göyərir, solur,
Hamı torpaqdandır, torpaq da olur...
Şahın özünə də gələcək növbət,
O da bir kəsəyə dönəcək əlbət.

İkinci Məzarçı

Biçarə Hicranın nədir günahı?
Titrədir yerləri, göyləri ahı.
Şahın qəzəbinə o qurban oldu,
Tez yanıb tez sönən bir şamdan oldu!..

Birinci Məzarçı

Qurtardıq, gəl gedək... nə işimiz var,
Bizə bir qanundur, gələn fərmanlar.

II Məzarçı

Fərmanla yatdıq biz, fərmanla durduq,
Ömrü bu peşəylə biz başa vurduq.

(Gedirlər. Nizami və Xaqani gəlirlər)

Nizami

Qoy onu son dəfə görüm mən barı,
Əziz Afaqımın ilk yadigarı
Bu gün veriləcək bu soyuq yerə,
Dərdliyəm, fəryadım çatınır göylərə!..
O da mənim kimi görmədi bir gün,
Uçdu, arzuları dağıldı bütün...

Xaqani

Nizami, bağrımı dağlama sən də,
Tökülür çiçəklər xəzan əsəndə!..

Nizami

Övlad ayrılığı yamandır, qardaş,
Əgər mən çəkəni çəksəydi bu daş
Buz kimi əriyib, inan, axardı,
Onun dərya qədər kamalı vardı!..

Səni də, səni də məhv etdi saray,
Başımda tufan var, qəlbimdə haray!..

Bu zaman əzan səsi gəlir. Nizami sakit dayanıb bu səsi dinləyir.

Nizami

(Xaqaniyə)

Bir zaman dinləyib onun səsini,
Şer tək sevərdi hər kəlməsini.
Şahlara ədalət istərdim ondan,
Görünür çox zaman yanılır insan!
Ah, indi qəlbimdə şübhələr vardır,
Ömrümün sarayı nə tarımardır!..

(səs gələn tərəfə)

Artıq mənasızdır sözün, söhbətin,
Sən ilk düşmənisən bəşəriyyətin!..

Xaqani

Dini pərdə sanıb insan gözünə,
Mən də inanmadım onun sözünə!..

Əzan səsi kəsilir. Şah, Vəzir, II və III əsgərlər gəlirlər.

Axsitan

(III əsgərə)

Cəllada deyin ki, gətirsin onu,
Qoy bilsin şahların kim olduğunu!..
Gözlərim qan görsün, ürəyim vursun,
Dünya bir qul olub önümdə dursun!

Üçüncü Əsgər

Baş üstə, bu saat böyük hökmdar...

(Baş əyib gedir)

Vəzir

(kinayə ilə)

Şairdə yenə də bir əzəmət var...

Axsitan

(dar ağacını göstərir)

Bax budur inaddan doğan nəticə,
Çökmüşdür üzünə qara bir gecə.

Nizami

Gecə bir anadır, övladı səhər,
Onunla işığa yetişir bəşər!..

Axsitan

Sənin ki, övladın öləcək indi?

Nizami

Onu yer vermişdir... gedir, yerindir!..

Xaqani

Məhəmməd ölsə də dastanlar qalır,
Əsərsiz qəlbləri dumanlar alır,
Bu şöhrət, bu mənsəb kor etdi sizi,
Kor etdi qan içən ürəyinizi!..

Nizami

Bayquş cəlalıdır bu cəlalınız,
Görüm daşa dönsün bu iqbalınız!

Ədalət deyərək mən qələm çaldım,
Ədalət görməyib vaxtsız qocaldım.
Dünya eşitdisə mənim adımı,
Eşidən olmadı bu fəryadımı!..

Vəzir

(Xaqaniyə)

Biz nahaq buraxdıq zindandan səni!..

Xaqani

Sən kiri, kim sayır de insan səni?
O, ləldir. Olmadı dünyada sərraf,
Qəlbi saf, sözü saf, məhəbbəti saf!..

Cəllad təntimiş halda gəlir.

Cəllad

Fəlakət üz vermiş, şahım, fəlakət!

Axsitan

De görüm hardadır, hanı Məhəmməd?!

Nizami

Mənim tərlan oğlum nə oldu, cəllad!

Cəllad

(şaha)

Onu buraxdırıb gizlincə Hicran,
Sonra hər ikisi çıxmış aradan!..

Axsitan

Demək ki, qaçmışlar?!

Cəllad

Qaçmışlar, bəli.

Axsitan

Gərək qan-qan desin cəlladın əli!
Ah, qızım! Ah, Hicran! Ah, südü murdar!

Vəzir

Bu bir xəyanətdir, böyük hökmdar?!

Axsitan

Əmr edin qoşuna, yayılsın çölə
Onlar keçməlidir bu saat elə!
Deyin qılınc çəkib şah gəlir özü,
Tökülsün torpağa, xainin gözü!..

Vəzir

Səbr edin. Kəndistan qalxar ayağa.

Axsitan

Yağış yox, qan yağsın gərək torpağa!
Kəndistan od tutub odlarda yansın,
Qoy dağlar, dərələr qana boyansın!
Saxlaya bilmirsə bir el başını,
Kəsin, it başı tək atın başını!..

Şah qılınc çəkir. Onlar gedirlər. Göy qaralır, külək əsir.

Nizami

Nə canda güc qaldı, nə qolda hünər,
Uçdu qəlb otağım yandı sərasər;
Nə ürək dayanır, qurtarsın həyat,
Nə dövran fikrimə verir bir qanad,
Nə əlim iş tutur, nə qaçır işdən,
Bədbəxt doğulmuşam bu dünyada mən!
Orda bir xaqan var, burda bir xaqan,
Gəncə bir zindandır, Şirvan bir zindan!
Kim bilir nə oldu, qaçdımı onlar?
Ömrümün nə ağır macərası var!

Xaqani

Gəl gedək axtaraq... kim bilir bunu,
Kim bilir bu dərdin nə olduğunu!..

Onlar gedirlər. Səhnədə müxtəlif səmtə qaçan saray əsgərləri görünürlər. Göy guruldayır, şimşək çaxır, Məhəmməd başıaçıq Hicranla gəlir.

Məhəmməd

Yoruldun, əzizim... gəl bir az dincəl.

(Dar ağacını göstərir)

Çəkib qılıncını durmuşdur əcəl!..

Hicran

(onun sinəsinə sıxılır)

Ürəyim döyünür... yaxlaşır ölüm...

Məhəmməd

(onun başını sığallayır)

Ölüm də bir sayaq həyatdır, gülüm!
Biz kamsız getsək də, bir kamdır o da,
Məhəbbət yaşayır, ölmür dünyada.
Gələcək şairlər anacaq bizi,
Şer yaşadacaq bu sevgimizi!..

Hicran

Sel kimi yayılıb çöllərə əsgər,
Səni asacaqlar tutulsan əgər?..
Budur dar ağacı, bax bu da məzar!

Məhəmməd

Saray bunun üstə tutubdur qərar.
Bundadır onların hər ixtiyarı,
Bundadır şahların dövləti, varı.
Bunlardır yaşadan o xanımanı,
Bunlardı məhv edən yazıq insanı!..
Atam da ədalət axtarır müdam,
Varmı ədalətli görək bir adam?
Sən qayıt, əzizim... Barı sən yaşa,
Sənin həyat eşqin dəyməsin daşa!

Hicran

Mən hara qayıdım? Gedərmi Hicran?
Qoy udsun da o qar, o boran.

Məhəmməd

(kimlərinsə gəldiyini görür)

Kimdir o gələnlər? Danışma, dayan!..

Hicran

Ölsəm də, sənlə öləcəm, inan!

Məhəmməd

Atamın yanında asılmaram mən,
Ölüm istəyirəm o kor fələkdən!..

(belindəki kiçik xəncəri çəkir, sonra yenə qına qoyur)

Hicran

(adamların gəldiyi tərəfə baxır)

O şahdır... yanında Qürur və cəllad!

Məhəmməd

Tarixə ləkədir dediyin o ad,
Gəl burda gizlənək.

Hicran

Nə bilim, görək!
Az qala sinəmdə partlasın ürək!..

Onlar iri bir daşın dalında gizlənirlər. Şah, Qürur və Cəllad gəlirlər.

Axsitan

Yəqin özlərini atdılar çaya,
Burda bir qaladır hər daş, hər qaya!..

Cəllad

Göyə də uçsalar tapacayıq biz!

Axsitan

Hər şeyə qadirdir bu şah nəslimiz!
Olmasa, Nizami qoy gəlsin bura,
Oğlunun yerinə çəkilsin dara!..

Qürur

Şahım, bu dərd olar Azərbaycana,
Yayılıb şöhrəti, adı hər yana?!

Axsitan

Qəlbimi bir şübhə yeyir, doğrusu,
Bəlkə İntizarın hiyləsidir bu?!
Yoxsa mənim qızım belə etməzdi,
Pis işlər dalınca əsla getməzdi!

(Cəllada)

Hər daşda, qayada qurun bir tələ,
Onlar quş da olsa keçəcək ələ!..

Gedirlər. Dalda Qürur qalır

Qürur

Nə oldu biçarə, nə oldu görən?
Təkmi qalacağam bu sarayda mən?!
Eşqi, məhəbbəti tutuldu xara,
Qaçdı həyat deyə düşdü dağlara!..

(Qürur onlar gizləndiyi daşın dalına gedərkən,
Məhəmməd daşın dalından çıxır)

Məhəmməd

Ah, sənsənmi Qürur?!

Qürur

Dostum, Məhəmməd.
İçimi qurd kimi parçalayır dərd!
Sizi axtarırlar, tez qaçın, qardaş!..

Məhəmməd

Bizə qala oldu gördüyün bu daş,
Söylə ki, Gəncəyə qayıtsın atam,
Məhəmməd ölsə də ölməsin ilham!..
Di sağ ol, qardaşım!..

Qürur

Yaxşı yol sizə,
Görüm çatasınız niyyətinizə!..

Onlar sıldırım dağlara tərəf gedirlər. Səhnədə yenə də o tərəfə – bu tərəfə qaçışan əsgərlər görünürlər. Cəllad siyirmə qılıncla səhnədən keçir. Qürur təkdir. Nizami və Xaqani pərişan halda gəlirlər.

Nizami

(Qürura)

Can oğul, onlardan bir xəbər varmı?
Heç mənim dərdim tək bir dərd olarmı?

Xaqani

Döşündə olmasa fırtına, tufan,
Durulmaz bir dəniz, durulmaz ümman.
Böyük Firdovsini salsana yada,
Bir gün görməmişdir o da dünyada!

Qürur

Mən gördüm onları...

Nizami

Nə dedi oğlum,
Nə dedi Məhəmməd, qurbanın olum?

Qürur

Dedi ki, Gəncəyə qayıtsın atam,
Məhəmməd ölsə də, ölməsin ilham!..

Nizami

Ah, onu bir dəfə görəydim barı,
Töküldü üstümə dağların qarı!..
Yox, ümid şeirədir, şeirədir ancaq,
Mənim qisasımı şeir alacaq!..

Şah və Vəzir gəlirlər

Axsitan

Şair, tapılmasa Məhəmməd inan,
Özün qabağımda asılacaqsan!

Nizami

Qoy olsun, belədir şahlarda adət,
Mən sizdə görmədim vəfa, sədaqət!..

Cəllad bayaq Məhəmmədin və Hicranın getdikləri tərəfdən gəlir.

Axsitan

De görüm nə oldu, nə oldu, cəllad,
Didir ürəyimi bir acı fəryad!?

Cəllad

Onlar özlərini çaya atdılar!..

Qürur

İgid bir ölümlə kama çatdılar!..

Nizami

(Xaqaniyə)

Ah, görüm zamanın kor olsun gözü.
Oğlumun qəlbində qaldı hər sözü!..

Axsitan

Xah. Xah. Xah. Dastanım bu oldu mənim,
Ölümlə isindi, qızdı bədənim...

İntizar

(şaha)

Yox, sənin dastanın bitməyib hələ,
Xirtdəyin indicə keçəcək ələ!..

Axsitan

İntizar... İntizar... Bu cürət nədir?!

İntizar

Artıq can otağım bir viranədir!
Öldürdün sən mənim məhəbbətimi,
Sulara qərq etdin Məhəmmədimi!..

Axsitan

Məhəbbət!.. Məhəbbət!.. Sən buna bir bax,
Elə bil töküldü üstümə bir dağ!..
Duymuşdum mən sənin bu niyyətini,
Dərbəndi bilirmiş xəyanətini!

İntizar

Mən qurdum tələni qızın Hicrana,
Bu gün mən göndərdim onu Şabrana.

Dedim qoy zindandan çıxsın Məhəmməd
Amma ki, Hicrana olmasın qismət!..

Axsitan

Mənim yazıq balam!.. Məhv oldu Hicran!..
Beynim qan, qəlbim qan, məhəbbətim qan!..
Budurmu sədaqət?! Budurmu vəfa?!

İntizar

Məni cana yığdı verdiyin cəfa
Gündə bir kənizə nəzər saldın sən,
Gecələr dərdimlə yalnız qaldım mən!

Axsitan

Gör kimlər yığılıb mənim başıma,
Bəxt əli qılınclı çıxdı qarşıma!..

İntizar

Mən Xaqan qızıyam!.. Qılıncını çək!

Axsitan

Nə qədər çirkinmiş səndəki ürək!..

Onlar qılınc çəkib vuruşurlar. Hamı heyrət və həyəcan içindədir.

Qürur

(həyəcanla)

Salın qılıncları... Durun bir anlıq!..

(Onlar yenə vuruşurlar)

Nizami

Qadına yaraşır bu qəhrəmanlıq!..

(Onlar vuruşurlar)

Xaqani

Qoy görsün o ulduz, qoy görsün o ay,
Can verir müstəbid... dağılır saray!..

Axsitan

Hamı düşmən olub mənim üstümə,
Eşqim, məhəbbətim gəldi üstümə!..

İntizar

Yalandır... özünlə gedəcək bu dərd,
Səndə nə eşq var, nə də məhəbbət!

Onlar yenə vuruşurlar. Nəhayət, İntizar şahı bərk yaralayır.
Şah yıxılır və ölür.

İntizar

Gözümdə qoydunsa mənim kamımı,
Mən aldım qılıncla intiqamımı!

Nizami

(Xaqaniyə)

Bilirdim, bilirdim zaman gələcək,
Qanla dövran sürən, qanla öləcək!

(İşıq sönür)

Pərdə

EPİLOQ

Gəncə. Proloqda olan vəziyyət eyni ilə təkrar olunur. Günortadan keçmişdir. Nizami, Zaman baba, Məhəmməd, Aydoğdu eyvandan enirlər. Onlar pərişandırlar.

Məhəmməd

(atasına)

Bu yuxu, deyildir, bu bir dəhşətdir,
Sənin gördüklərin bir fəlakətdir!..

Nizami

Hər kəs oğul dərdi görməsin, aman,
Sinəmdə ağlayır sanki bir kaman!..
Yaxşı ki, sarayda yaşamadım mən,
Şan-şöhrət keçmədi əsla qəlbimdən.
Nə xələt istədim, nə dövlət, nə mal,
Var olsun qoy şeir, var olsun amal!

Zaman baba

Elədir... yuxunu unudun getsin,
İnsan zəhmət ilə murada yetsin.
Hər gün dua edək böyük Allaha
Biz möhtac olmadıq vəzirə, şaha!..

Məhəmməd

Qoy uçsun o saray, qoy ölsün o şah,
Biz orda qan töküb etmədik günah.
Haqqı ədaləti unutmadıq biz,
Böyük əməllərlə vurdu qəlbimiz!..

Zaman baba

(Nizamiyə)

Yaxşılıq toxumu səp ürəklərə,
Yaxşılıq şöhrətdir daim bəşərə...

Nizami

İndi İskəndərdir fikrimdən keçən,
Əqlin çeşməsindən odur su içən.
Odur xəyalımda, qəlbimdə müdam,
Bir onun eşqiylə çalxanır ilham!
Ömür vəfa etsə, yorulmasa əl,
Şerim yandıracaq bu yolda məşəl!..

(Məhəmmədə)

Nə bilim, can bala... sözün doğrusu,
Bəlkə son dastanım bu olacaq, bu!

Məhəmməd

Son dastan nə üçün? Belə demə, bil,
Sənin söz xəzinən tükənən deyil!

Nizami

(Zaman babaya)

Sonra bir arzum var... Zaman kişi, sən,
Mənim qərarımı özün bilirsən.

(Aydoğdunu və Məhəmmədi göstərir)

Bunların toyunu ləngitmək olmaz,
Biz də bu dünyada sevinək bir az.

(Onların alınlarından öpür. Aydoğdu utanıb gedir)

Zaman baba

Sən bilən yaxşıdır... o gün olsun sən
Bu bircə oğlundan nəvə görəsən!..

Nizami

Sağ ol Zaman kişi...

Bu vaxt çöl qapısı döyülür.

Zaman baba

Qonaqdır yəqin...
Qapısı açıqdır bizim həyətin?

Nizami

Məhəmməd gör kimdir, de gəlsin ona,
Dağ-dağa arxadır, insan-insana...

Məhəmməd gedir. Bir az sonra yanında Xaqani qayıdır. Məhəmməd qonağın kim olduğunu bilmir.

Nizami

Xaqani!..

Xaqani

Nizami!..

Nizami

Çox şadam, inan,
Güldü gözlərimdə gül açdı cahan!..

Xaqani

Çox sağ ol, əzizim... çox sağ ol, qardaş,
Zamanda bir sənsən, könlümə sirdaş!

(Məhəmmədi göstərir)

Yəqin Məhəmməddir?

Nizami

Oğlumdur, bəli...

(Xaqani Məhəmmədin alnından öpür)

Xaqani

Ona kömək olsun taleyin əli!
Görməsin ömründə bir dərd, bir qada,
Nəsibi xoşbəxtlik olsun dünyada!..

Nizami

Vaxtında gəlmisən... sevinir ürək,
Bu günlər oğluma toy edəm gərək.

Xaqani

Bəxtiyar olsunlar... Keçdikcə illər,
Xoş günlər görəcək bizim nəsillər.
Kamala yetdikcə dünyada bəşər,
Bir də açmayacaq qapıları şər!..

(Kiçik pauza)

Çoxdan istəyirdim baş çəkim sizə,
Yığışıb köçürəm daha Təbrizə.

Şirvan atamdırsa, anamdır Təbriz,
Təbrizsiz yaşaya bilərikmi biz?

Nizami

Elədir, qardaşım, elədir əlbət,
Bizə ordan gəlir hər dürlü nemət.

Xaqani

Gəncə də gözəldir!.. Hər tərəf, hər yer,
Bir xoş mənzərədir, bir gözəl şeir.
Bəşər ömrü boyu deyəcək mənə;
Yaşasın Nizami! Var olsun Gəncə!

Pərdə

SON

MÜNDƏRİCAT

Dünənin, bu günün, sabahın şairi 4

ŞEİRLƏR

Ata və oğul 9
Şair olmaq istədim mən 11
Dəniz olmaq istədim 12
XX əsrim mənim 14
Sevdiyim rəng 16
Harda bir ocaq söndü 17
Dünya, ey gözəl dünya 18
Əsrim, taleyim mənim 19
Öləndə bir çevirin məni 21
Dostum, hər insandan mənə umma sən 21
Oğlum Etibara 22
Nəvəm Vildanım mənim 23
Mən odlu bir qılıncam 25
Qoy çaxsın ildırım, sönsün kiçik şam 26
Şərbət də içdim mən, zəhər də gördüm 27
Bulaq, gözəl bulaq, belə axıb sən 27
Söylə, ey ildırım, nə üçün sənin 27
Dağ mehi 28
Bağbanla söhbət 29
Neçin pəncərəmi döydün ay külək 31
Yenə səhər-səhər başımın üstən 31
Sən uçurum dəşündə 32
Qaratoyuq 33
Mən bir çinar ağacıydım 34
Talan olmasın deyə 35
Çayın həsrəti 37
Gecə, döyüşqabağı 38
Tökül, ey dağ çayı, uç qayalarda 39
Hacıkənd, Sarı yal, hardasınız siz? 39
Dağ cığırı haqqında şeir 40
Qəhrəman ağac 42
Göldə qayıq izi var 43
Tonqal 44

Əgər gözüm kor olsa 45
Pirşağı 45
Məcnun söyüd 47
Ey boz çinar, xan çinar 48
Meşədə böyümüş nəhəng bir ağac 49
İnsanlar, insanlar 49

QAQRA ŞEİRLƏRİ

Qara dənizə sözüm var 50
Dəniz qartalı 52
Ovcumda bir daş vardır 53
Bulud 53
Nazim yadıma düşdü 55
Bu gecə şaq-şaraq çalxandı dəniz 56
Günəş, dəniz və insan 56
Bir cığır istəyirəm mən 58
Dəniz yanmadı 59
Damcılar 61
Günəş batır 62
Azərbaycan 63
Palma 65
Əlvida, Qaqra 66

KOKTEBEL ŞEİRLƏRİ

Sevgilim 67
Koktebel 67
Koktebeldə bir dağ gördüm 69
Leyla 70
Dünən göydən od yağırdı 72
Külək əsir dənizə 73

BOLQARISTAN ŞEİRLƏRİ

Əsgər ürəyi 74
Güllü dərə 76
Qızıl qumlarda 77
Yaylıq 79

BİR PALIDAM

Yarpaq 80
Pəncərədən gördüm səni 80
Bir palıdam 82
Qabağımda kağız, qələm 84
Demə, bir də demə mənə 85
Bir yarpağam... Axşam çağı 86
Bir göyərçin daşa çırpır 87

MİRZƏ ŞƏFİ VAZEHİ OXUYARKƏN

Giriş 88
Şair və Axund 90
Mirzə Şəfi, Mirzə Yusif və Tacir 91
İlk məhəbbət 93
Şairin vətəni 94
Buz haqqında ballada 96
Çinarlar altında. 97

SƏMƏD VURĞUN HAQQINDA DÖRD ŞEİR

Dedim şeir yazım ona 102
Ölüm haqqında söhbət 104
Şairin səsi 106
Qəbrin üstə düşdü ilk qar 112
Tar 113
Şairin ölümü 114

ƏLLƏRİN SƏNİN

Gəldi yar 117
Bənövşə 118
Mənə lazımdır ancaq 119
Sənin fotoşəklin 119
Sən nə gözəlsən 120
Yorğunam sevgilim 122
Əllərin sənin 122
Ay işığında 123
Məhəbbət 124

Ürək 126
Uzaqda sanma məni 126
Mən səni axtarıdım 128
Əlim əlinə dəydi 129

MİNİATÜRLƏR

"Ağac sallayaraq budaqlarını..." 130
"– Yaman yağış yağır!.." 130
"Min il məhkum olsa..." 130
"Sünbül dənə dolub əydi başını..." 130
"Gözünü zilləyib o göylərə sən..." 131
"Günəşdən soruşdum..." 131
"Xəyanət – gözü kor, qulağı da kar..." 131
"Yenə fikirlisən? Yenə qüssə, qəm?.." 131
"Batıb kənd yolunda qəmə, kədərə..." 132
"Bir adam dalınca deyindi yaman!.." 132
"Bu necə hikmətdir..." 132
"Qayna! Qayalardan tökül, ey bulaq!.." 132
"Bir tabut üstündə dedi bir çiçək..." 133
"Səhər də, axşam da işlədi bağban..." 133
"Atılıb yol üstdə qalan bir daşa..." 133
"Doğrunun üstünə qışqırdı oğru..." 133
"Başı qırxılmayıb dağlı başı tək..." 134
"İldırım göylərdə çaxdı hiddətlə..." 134
"Bir insan doğuldu..." 134
"Barını yediyin ağacı kəssən..." 134
"Qonşum çapdı divarı..." 135
"Min cür əyri yolu var..." 135
"Birisi pəhləvan deyib özünə..." 135
"Namərd bir körpü saldı..." 135

POEMA

Koroğlunun qocalığı 136

PYES

Şairin yuxusu 151

ZEYNAL XƏLİL

SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ÖNDƏR NƏŞRİYYAT"

BAKI-2004

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəşad Həmidov*
Rəvan Mürsəlov

Korrektor: *Ceyran Abbasova*

Yığılmağa verilmişdir 25.04.2004. Çapa imzalanmışdır 26.11.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 16,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 174.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.

000005